

“Bu razılaşma Azərbaycanın gücünə güc qatmış olacaq”

5

Səs

№ 127 (6568) 21 iyul 2022-ci il. Qiymәti 60 qәpik

## Sənaye zonalarında sahibkarlar üçün əlverişli investisiya və biznes mühiti yaradılıb

2



# Aqrar siyasətin yeni mərhələsi: çətinliklər və imkanlar

*Artan əhalinin ərzaq və digər kənd təsərrüfatı məhsullarına olan tələbatının mövcud resurslarla və mövcud texnoloji inkişaf səviyyəsi ilə ödənilməsinin mümkünlüyü hələ də açıq sual olaraq qalır. Kənd təsərrüfatı bu problemlərin öhdəsindən əsasən artıq istifadədə olan torpaqlarda istehsalı artırmaqla, eyni zamanda əkin üçün yalnız qismən yararlı olan torpaqlara daha çox üstünlük verməklə məşğul olmalıdır. Davamlı kənd təsərrüfatı və kənd inkişafı üçün əlverişli mühit yaratmaq üçün həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan...*



8

## Dəyişən Azərbaycan, dəyişməyən təfəkkür...



10

## "MEDİA-nın dəstək verdiyi bütün qəzetlərdə əsaslı dəyişiklik özünü göstərir"




5

## Rus ekspert: “Yeni müharibə başlasa, Ermənistan uduzacaq”



15




11

## Erməni cəmiyyətində ANTİDOTLARA EHTİYAC DUYULUR

*Ermənistan hələ də hansı istiqamət götürəcəyini təyin etməyən bir gəmiyə bənzəyir. Bu ölkədə nə normal ideologiya, nə də mövcud çətinliklərini arada qaldıracağına, eləcə də gələcəyini necə quracağına dair heç bir konsepsiya yoxdur.*



6

## “Mənəvi-psixoloji silah həm də cəmiyyətə tuşlanıb”

“Son dövrlərdə informasiya texnologiyalarının sürətli inkişafı və sosial media adlandırılan bir sistemin meydana çıxması...



## Qazaxıstandan Avropaya açılan yeni qapı - AZƏRBAYCAN

7

*Bu gün Qazaxıstanın ixrac neftinin demək olar ki, 97 faizi Rusiya vasitəsilə nəql olunur. Tranzit marşrutlarının hipotetik şəkildə bağlanması halında Qazaxıstan bütün alternativ...*



## Türkiyədə 3300 illik tarixi olan möhür və xəncər tapıldı

16

*Türkiyənin Kütahya rayonunda yerləşən 8 min illik tarixi olan Tavşanlıda yeni arxeoloji qazıntılar zamanı tarixi 3300 illik olan möhür...*

# Sənaye zonalarında sahibkarlar üçün əlverişli investisiya və biznes mühiti yaradılıb

## *Prezident İlham Əliyev Sumqayıtda bir sıra tədbirlərdə iştirak edib*













***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də ulu öndər Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib. Dövlətimizin başçısı abidə önünə gül dəstəsi qoyub.***

Daha sonra Prezident İlham Əliyev Sumqayıt Şəhidlər xiyabanında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olub. Dövlətimizin başçısı əvvəlcə Şəhidlər xiyabanında ucaldılmış Qalib Əsgər abidəsinin və Xocalı faciəsi qurbanlarının xatirəsinə həsr olunan abidənin önünə gül dəstələri qoyub.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Prezident İlham Əliyevə Şəhidlər xiyabanında görülən işlər barədə məlumat verib.

Bildirildi ki, Sumqayıt şəhərində 1992-ci ildə salınan, 513 şəhidin uyuduğu Şəhidlər xiyabanı 2021-ci ildə əsaslı şəkildə təmir olunub, burada kompleks yenidənqurma işləri aparılıb. Şəhidlər xiyabanında hündürlüyü 30 metr olan yeni bayraq dirəyi quraşdırılıb. Şəhidlər xiyabanının ərazisi genişləndirilərək 1,2 hektara çatdırılıb. Şəhidlər xiyabanında yaşıllıq örtüyü salınıb, işıqlandırma sistemi müasirləşdirilib, fəvvarə kompleksi inşa edilib. Burada yenidənqurma işləri çərçivəsində Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə "Zəfər ağacı" abidəsi yaradılıb, həmçinin inzibati bina inşa olunub.

Şəhidlər xiyabanında Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 144 şəxs haqqında məlumatların əks olunduğu abidə ucaldılıb. Dövlətimizin başçısı Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirak edib.

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk Sənaye Parkıdır. Cənubi Qafqazın ən böyük Sənaye Parkının ərazisində neft-kimya, kimya, tikinti materiallarının istehsalı və digər prioritet sənaye sahələri üzrə müəssisələr fəaliyyət göstərir, həmçinin yeni istehsal və emal müəssisələri yaradılır.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Sumqayıt Kimya Sənaye Parkında görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Sənaye Parkında ümumi investisiyaların həcmi 3,27 milyard ABŞ dollarından artıq olan 31 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək Sənaye Parkına rezidentlər tərəfindən 3,1 milyard ABŞ dollarına yaxın sərmayə yatırılıb. Qeydiyyata alınmış 31 rezidentdən 17-si artıq fəaliyyət göstərir. Bu gün istifadəyə veriləcək "Glassica" Qapalı Səhmdar Cəmiyyəti və "Azərsulfat" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 19-a çatacaq.

Prezident İlham Əliyev əvvəlcə "Glassica" Qapalı Səhmdar Cəmiyyətinin şüşə tara məhsullarının istehsalı müəssisəsi ilə tanış olub. Daha sonra Qapalı Səhmdar Cəmiyyətinin təsisçisi İbrahim Həsənov müəssisə barədə məlumat verib.

Bildirilib ki, təməli 2021-ci il yanvarın 18-də dövlətimizin başçısı tərəfindən qoyulan, ümumi investisiya dəyəri 20 milyon manatdan çox olan müəssisədə il ərzində 90 milyon ədəd müxtəlif çeşidli rəngli şüşə tara məhsulları (butulka) istehsal olunacaq. Müəssisədə istehsal edilən məhsullar daxili tələbatı tam ödəməklə yanaşı, xarici ölkələrə də ixrac olunacaq. Sənaye Parkının 2,6 hektar ərazisində inşa edilmiş müəssisədə 160 nəfər daimi işlə təmin ediləcək. Müəssisənin layihələndirilməsi və qabaqcıl texnologiyalarla təchiz olunması Almaniyanın dünyada şüşəəritmə texnologiyaları sahəsində 135 ildən çox təcrübəyə malik "HORN Glass Industries AG" şirkəti tərəfindən həyata keçirilib. Dövlətimizin başçısı müəssisəni işə salıb. Prezident İlham Əliyev eyni zamanda yük və xüsusi təyinatlı avtomobillərin istehsalı müəssisəsinin təməlini qoyub.

Sonra dövlətimizin başçısı "Azərsulfat" Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni inşa edilmiş sulfat turşusu istehsalı müəssisəsində yaradılan şəraitlə tanış olub. 2021-ci il yanvarın 18-də dövlətimizin başçısının iştirakı ilə təməli qoyulan sulfat turşusu istehsalı müəssisəsi Sənaye Parkının 1,5 hektar ərazisində inşa edilib. Müəssisədə mineral gübrələrin (superfosfat, amonium-sulfat) istehsalında, kimya sənayesi və metallurgiyada, neft sənayesində təmizləyici maddə kimi istifadə olunan sulfat turşusu məhsulunun istehsalı həyata keçiriləcək. Müəssisənin illik istehsal gücü 20 min tondur. Onun 10 min tonunu daxili bazar, 10 min tonunu isə ixrac üçün planlaşdırılır. Artıq Gürcüstandan "Rustavi azot" müəssisəsi ilə müqavilə bağlanılıb. Qazaxıstandan və Rusiyadan da sulfat turşusu üçün müraciətlər daxil olur. Daxili bazarda da tələbat artmaqdadır. Azərbaycan Prezidenti İlham Əliyev müəssisəni işə salıb.

Daha sonra "Azərbaycan Vanhong Ceramics Co" Məhdud Məsuliyyətli Cəmiyyətinin keramik plitələr istehsalı müəssisəsinin təməli qoyulub.

İyulun 20-də 2 saylı Sumqayıt regional "ASAN xidmət" Mərkəzi istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzin açılışında iştirak edib. Dövlətimizin başçısı 2 saylı Sumqayıt regional "ASAN xidmət" Mərkəzinin açılışını edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev dövlətimizin başçısına Sumqayıtda 2-ci, ölkə üzrə isə 24-cü olan "ASAN xidmət" Mərkəzində yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, hazırda Sumqayıtda fəaliyyət göstərən 1 saylı regional "ASAN xidmət" Mərkəzi gün ərzində 3 minə qədər vətəndaşa xidmət göstərir. Xidmətlərə artan ciddi tələbat nəzərə alınaraq, Sumqayıtda ikinci regional "ASAN xidmət" Mərkəzi inşa edilib. Ümumilikdə, ölkə üzrə "ASAN xidmət" mərkəzlərinə bu günədək 54 milyona yaxın müraciət daxil olub.

Qeyd edildi ki, 2 saylı Sumqayıt regional Mərkəzi üçün dördmərtəbəli inzibati bina, fəvvarə, iki yerüstü avtomobil dayanacağı, kafe, istirahət və uşaq əyləncə meydançaları yaradılıb. Fasadlarda müasir texnologiyalardan istifadə edilib.

# Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan Anlaşma Memorandumu Dünya KİV-lərinin diqqət mərkəzindədir




ЕС подписал с Азербайджаном меморандум о стратегическом сотрудничестве в энергетике

***Gürcüstanın aparıcı informasiya portalları Azərbaycan Prezidenti İlham Əliyev ilə Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen arasında keçirilən görüş, eləcə də Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" barədə silsilə materiallar dərc ediblər.***







Belə ki, kavkasia.net, 24news.ge və newsgeorgia.ge, portallarında və 1tv.ge televiziya kanalında Azərbaycan, rus, ingilis və gürcü dillərində yayımlanan materiallarda imzalanma mərasimində Azərbaycan Prezidentinin və Avropa Komissiyası Prezidentinin fikirləri yer alıb.

Materiallarda Memorandumun gələcək üçün bir növ yol xəritəsi olması barədə Azərbaycan Prezidentinin fikirləri xüsusi qeyd edilib.

Bundan başqa, müzakirə olunan digər məsələlər sırasında şəbəkələrin qurulması, qonşu ölkələrlə əlaqələrə verilən önəm, quru sərhədlərlə bağlı fikirləri, eləcə də enerji layihələri, imzalanacaq yeni layihələr, Azərbaycanın dünyada qazandığı hörmət, Avropa İttifaqı ilə Azərbaycan arasında yeni enerji müqaviləsinin imzalanacağına dair fikirlər əksini tapıb.

İtaliyanın çoxsaylı kütləvi informasiya vasitələri Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumuna geniş diqqət ayırıb.

Belə ki, "RAI", "ANSA", "AGI", "Aska News", "Il Sole 24 Ore", "Notizie Yahoo", "Italpress", "il Dolomiti", "Notizie Tiscali", "Cronachedi", "il tempo", "Imolaoggi", "Agenpress" kimi xəbər saytlarında dərc olunan yazılarda Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin ölkəmizə səfəri, Prezident İlham Əliyevlə keçirilən görüş və Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyətindən bəhs edilib.

Bildirilib ki, Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlığı uğurla inkişaf edir, Aİ hazırda ölkəmizin əsas ticarət tərəfdaşıdır. Enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı ilə Azərbaycanın əlaqələrinin mühüm hissəsini təşkil edir. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması ilə fəal əməkdaşlıq yeni mərhələyə qədəm qoyur. Memorandumda Azərbaycandan Avropa İttifaqına təchiz edilən təbii qazın həcminin ikiqat artırılması, bir neçə il ərzində ölkəmizdən qitəyə nəql olunan qaz həcmlərinin 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Həmçinin Aİ Cənub Qaz Dəhlizinin genişləndirilməsi ilə bağlı üzərinə öhdəlik götürüb. Bundan başqa, Avropa İttifaqı və Azərbaycan bərpaolunan enerji sahəsində də əməkdaşlıq edəcək.

Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə görüşü, Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında enerji sahəsində Strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması Fransa mətbuatının diqqət mərkəzindədir.

Belə ki, Fransanın yazılı mətbuatı, eləcə də televiziya kanalları Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın etibarlı strateji tərəfdaşı olduğunu qeyd edir.

Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın tarixinə toxunulan məqalələrdə bildirilir ki, Aİ-nin 27 ölkəsi Avropa üçün əsas qaz istehsalçısı və ixracatçısı olan Azərbaycanın köməyinə müraciət ediblər.

Brüsselin Bakını qocaman Avropa qitəsi ilə birləşdirən üç qaz kəmərindən birini genişləndirmək istəyindən bəhs olunur. Qeyd edilir ki, hazırda qaz dəhlizinə 3 qaz kəməri (Cənubi Qafqaz, Trans-Anadolu və Trans-Adriatik) daxildir.

2020-ci ildə istifadəyə verilən kompleks 2021-ci ildə 8 milyard kubmetr təbii qaz Avropaya ötürülüb və 2022-ci ildə bu rəqəmin 10 milyardı keçəcəyi gözlənilir.

"Aİ daha etibarlı enerji təchizatçılarına müraciət edir. Bu gün mən Azərbaycanda yeni müqavilə imzalamaq üçün gəlmişəm. Məqsədimiz Azərbaycandan Aİ-yə qaz nəqlini iki dəfə artırmaqdır", - deyə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin tviterdəki paylaşımında bildirilir.

Həmçinin məqalələrdə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın artıq 15 ilə yaxın tarixi olduğu, Gürcüstan və Türkiyə üzərindən keçməklə Avropaya çatdırılan Azərbaycan neftinin və qazının həmin ərazidəki ölkələrin enerji təminatı üçün böyük əhəmiyyət daşıdığı qeyd edilir. Həmçinin Azərbaycanın Avropa İttifaqının etibarlı strateji tərəfdaşı olduğu vurğulanır.












# Avropa Parlamenti hansı nəticələri çıxarmalıdır?

***Yaxud, Prezident İlham Əliyev Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən və sərt tənbehlərini irəli sürərkən nəyə eyham vurdu?***



***Məlum olduğu kimi, son günlər ölkəmizin siyasi gündəmi sıxlığı ilə seçilir və burada ən çox görünən tərəf rəsmi Bakının Avropa qurumları ilə münasibətlərini möhkəmləndirməsidir. Belə ki, Prezident İlham Əliyevin ölkəmizə rəsmi səfər edən Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayeni qəbul etməsi və rəsmi qəbul zamanı bir sıra mühüm məqamlara toxunulması da məhz bu xüsusdandır.***

Azərbaycan ilə Avropa İttifaqı arasında ”Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu”nun imzalanması isə ölkəmizlə Aİ arasında münbit əlaqələrin daha genişlənməsinə, strateji əməkdaşlığa öz töhfələrini verir. O cümlədən, qeyd edə bilərik ki, Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə Xüsusi Nümayəndəsi Toivo Klaarın Azərbaycana səfəri də bir sıra əhəmiyyətli faktorları nümayiş etdirməkdədir. Bu səfər həm də belə deməyə əsas verir ki, Azərbaycan Cənubi Qafqaz regionunda liderlik mövqeyini təsdiqləyir, eyni zamanda, ölkəmiz Avropa İttifaqı üçün çox mühüm dost və eyni zamanda, strateji partnyor olaraq tanınmaqdadır.

### Aİ-nin Azərbaycanla əməkdaşlığını davam etdirməkdə maraqlı olduğunu bəyan etməsi növbəti uğurlu münasibətlərin anonsunu verməkdədir

Bütün bunların fonunda son dövrlərdə Prezident İlham Əliyevin Aİ Şurasının rəhbəri Şarl Mişellə mütəmadi görüşlər keçirməsi, Aİ-nin Azərbaycanla əməkdaşlığını davam etdirməkdə maraqlı olduğunu bəyan etməsi növbəti uğurlu münasibətlərin anonsunu verməkdədir.

### Prezident İlham Əliyevin onları qəbul etməsi, eləcə də görüş zamanı dövlət başçımızın Avropa Parlamentinin fəaliyyətinə qarşı haqlı iradlarını çatdırması bir sıra digər məqamları üzə çıxarmış olur

ŞƏRH-AKTUAL

Məhz həmin görüşlər fonunda Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətinin də Bakıya rəsmi səfər etməsi, səfər çərçivəsində Prezident İlham Əliyevin onları qəbul etməsi, eləcə də görüş zamanı dövlət başçımızın Avropa Parlamentinin fəaliyyətinə qarşı haqlı iradlarını çatdırması bir sıra digər məqamları üzə çıxarmış olur. Əbəs deyil ki, dövlətimizin başçısı görüş zamanı xatırlatdı ki, Avroparlamentin Bakıya sonuncu səfəri illər əvvəl baş tutub və ötən 5 il ərzində bu qurumdakı ayrı-ayrı dairələr anti-Azərbaycan xarakterli fikir və çıxışları, hətta təhqirləri ilə yadda qalıblar. SİTAT: ”Yadımdadır, sonuncu nümayəndə heyəti 2018-ci ildə gəlmişdi. Səmimi desək, mən Azərbaycana səfərinizi planlaşdırdığınızı eşidəndə, hətta bir az təəccübləndim. Ola bilsin, səbəb sizə məlumdur. Əməkdaşlığın inkişafı ilə bağlı geniş şəkildə müzakirə etdiyimiz görüş yadımdadır. Lakin, əfsuslar olsun ki, bu, baş tutmadı. Səbəb bizimlə yox, Avropa Parlamentinin bəzi üzvlərinin mövqeyi ilə bağlı idi. Biz həmin mövqeni tamamilə əsassız hesab edirik. Bizə qarşı ittihamlar, təhqirlər səsləndirildi və yalan məlumatlar yayıldı”.

Bu əsnada daha bir danılmaz fakt budur ki, dövlətimizin başçısı Avroparlamentin riyakar münasibətlərini də unutmadığını xüsusilə nəzərə çatdırıb. Məsələn, Prezidentin sözlərinə görə, o Avropa Parlamentinin müxtəlif vaxtlarda qəbul etdiyi anti-Azərbaycan qətnamələrin sayını da yaddan çıxarmayıb: ”Ola bilsin, 10-dan artıq qətnamədən söhbət gedir. Xüsusən də Vətən müharibəsindən sonra bir qətnamə qəbul edilmişdir. Bu, ayrıca narahatlıq doğurur, çünki həmin qətnamədə Qarabağda erməni mədəni irsinin dağıdılmasına istinad edilir. Bu isə həqiqətə uyğun deyil. Həmin qətnamə bu ilin mart ayında qəbul olunub. Yəni, müharibə bitəndən ilyarım sonrakı vaxta təsadüf edir”.

Dövlət başçımız fikirlərinə sübut olaraq qeyd edib ki, Avropa Parlamenti 44 günlük müharibədən sonra dünyanın bir sıra ölkələrinin səəfirləri, səfirlik nümayəndələri, siyasətçiləri, Avropanın bəzi ölkələrinin parlament sədrləri, jurnalistlər azad olunmuş torpaqlarımıza səfərlər ediblər və onların hamısı Azərbaycanın mədəni irsinin tamamilə məhv edilməsinin şahidi olublar. Lakin Avropa Parlamenti əlində heç bir əsası, sübutu, faktı olmadan Azərbaycanı ittiham edərək guya ”erməni irsinin dağıdılması” ittihamları ilə çıxış edib və burada açıq-aşkar riyakarlıq mövqeyi görünür.

Prezident İlham Əliyev qeyd edib: ”Onlar hər hansı erməni mədəni irsinin dağıdılmasını görmədilər. Əksinə, erməni mədəni irsi həm Bakıda, həm də Qarabağda mühafizə olunur. Bununla belə, işğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən dağıdılmışdır. Bu barədə heç bir söz belə deyilmir. Onlar məscidlərimizdə donuz və inək saxlayırdılar, şəhərlərimizi və kəndlərimizi yerlə-yeksan ediblər.

Hazırda biz səfərlər təşkil edirik və Azərbaycanın hər bir vətəndaşı Şuşanı, Füzulini və Ağdamı ziyarət edə bilər. Hər kəs erməni vandalizminin, barbarlığının miqyasını görə bilər. Belə şəraitdə Azərbaycanı heç vaxt etmədiyimiz məsələlərdə ittiham edən Ermənistanın və ermənilərin ərazilərimizdə törətdiyinə göz yuman birtərəfli qətnamənin qəbul edilməsi tamamilə qəbulolunmazdır. Əfsuslar olsun, bu, baş verdi. Bilirəm ki, nümayəndə heyətinizin bir çox üzvləri həmin qətnamənin lehinə səs veriblər. Bu isə tamamilə əks-nəticə verən addımdır. Birincisi, bu, yalandır və uydurulmuş faktlara, böhtan və iftiralara əsaslanır. İkincisi, bu, o qədər böyük əhəmiyyət kəsb etmir. Çünki siz yəqin bilirsiniz ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin yaxşı tarixi var və xüsusilə hazırda əlaqələr çox uğurla inkişaf edir”.

Məhz bu kimi faktorları incələyərkən bir daha məqalənin əvvəlində qeyd edilən fikirləri önə sürmək olar. Belə ki, ölkə rəhbərimiz Avropa parlamentariləri ilə görüşü zamanı Azərbaycan-Avropa İttifaqı münasibətlərininin yüksək səviyyədə inkişafını xüsusi ilə xatırlayıb. SİTAT: ”Siz Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin dünənki səfəri haqqında yəqin məlumatlısınız. Bizim çox yaxşı müzakirələrimiz oldu. Bu, Azərbaycanla Avropa İttifaqı arasında ikitərəfli münasibətlərin əhəmiyyətini bir daha vurğulayır. Eyni zamanda, Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişel Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə fəal şəkildə cəlb olunub. O, artıq Ermənistan və Azərbaycan rəhbərlərinin və özünün iştirakı ilə üç üçtərəfli görüşə ev sahibliyi edib. Beləliklə, bu, çox müsbət kontekstdir”.

Dövlət başçımızın haqlı iradlarından belə bir nəticə də hasil etmək olar - Avropa Parlamenti həddini o qədər aşıb ki, hətta zaman-zaman əndazəsini aşmaqla aqressiya nümayiş etdirir və bu aqressiya ermənipərəstliyin pik həddi ilə paralellik təşkil edir. SİTAT: ”Lakin bunu nəzərə alaraq, biz Avropa Parlamentinin hərəkətlərini başa düşə bilmirik. Əslində, Avropa Parlamenti Ermənistan parlamenti ilə müqayisədə Azərbaycana qarşı daha çox aqressivdir. Bəzən elə gəlir ki, bu qətnamələri Ermənistan parlamenti qəbul edir və ya ola bilsin, bəzi erməni lobbi qruplarının onların üzərində müəyyən təsiri var. Əks halda, bunu başa düşmək çox çətindir. Təəccübləndiyimi deyəndə mən məhz bunu nəzərdə tuturdum”.

Dövlətimizin başçısı nümayəndə heyətinin rəhbərinin diqqətinə çatdırıb ki, görüşə şaddır və MakAlisterin Azərbaycan əleyhinə səsvermədə iştirak etmədiyindən məlumatlı olduğunu da deyib. Sizi görməyə çox şadam. Mən bizim görüşümüzü xatırlayıram: ”Bilirəm ki, siz bu qətnamənin lehinə səs verməmisiniz. Lakin əfsuslar olsun ki, bir çox Avropa parlamentariləri heç bir əsas olmadan bizi hücuma məruz qoyublar. Beləliklə, vəziyyət belədir. Biz real dünyada yaşayırıq, bu, bizim seçimimiz deyil. Siz mənim mövqeyimi bilirsiniz. Mənim mövqeyim 2017-ci ildə sonuncu görüşümüzdən bəri dəyişməyib. Biz Avropa ilə yaxın münasibətlər qurmaq istəyirik və bizim bütün etdiklərimiz, o cümlədən indicə qeyd etdiyim əməkdaşlığın nəzərəçarpan əlamətləri bunu nümayiş etdirir. Lakin Avropa Parlamenti belə bir yol seçməyi düşünürsə, bu, onların seçimidir. Amma onlar parlamentin bəzi üzvlərinin cəhdlərinə baxmayaraq, Avropanı Azərbaycandan və Azərbaycanı Avropadan təcrid etməyin mümkün olmadığını bilməlidirlər”.

Prezident İlham Əliyev eyni zamanda qeyd edib ki, o özünü heç nəyin baş verməmiş kimi göstərmək istəmir və əslində baş verib: ”Baş verib, çox ciddi və bizi narahat edən məsələ baş verib. Buna görə də mən sizi özümün və Azərbaycan xalqının mütləq əksəriyyətinin baxışları haqqında məlumatlandırmağı qərara aldım. Onlar torpaqlarımızı özümüzün azad etməyimizdən, cəsur əsgərlərimizdən, Vətən uğrunda canından keçənlərdən, azərbaycanlı olmaqdan, işğala son qoyan, ədaləti, milli ləyaqətini bərpa edən və indi uğurla inkişaf edən xalqın nümayəndələri olmaqdan qürur hissi keçirirlər”.

Beləliklə, dövlət başçımızın qətiyyətli, sərt və birmənalı iradları, eləcə də tənbehləri Avropa Parlamentinə çatdırıldı və qalır bu qurumun özünə çəki-düzən verərək reallıqları dərk etməsinə. Ümid edək ki, bir sıra ermənipərəst dairələrin, erməni lobbisinin təsiri altında olan bu qurum doğru-dürüst nəticə hasil etmək üçün özündə siyasi iradə tapacaq...

***Rövşən RƏSULOV***

# “Bu razılaşma Azərbaycanın gücünə güc qatmış olacaq”



***“Azərbaycanda səfərdə olan Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen və Azərbaycan Prezidenti İlham Əliyev arasında Avropa Komissiyasının timsalında Avropa İttifaqı ilə Azərbaycan dövləti arasında enerji sahəsində strateji tərəfdaşlığa dair memorandum imzalandı". Bu fikirləri SİA-ya açıqlamasında beynəlxalq ekspert Anar Əliyev bildirib.***

Onun sözlərinə görə, eyni zamanda tərəflər mətbuata bəyanatla çıxış etdilər: ”Avropanın enerji təhlükəsizliyində Avropa İttifaqı Azərbaycanı çox ciddi və etibarlı bir tərəfdaş kimi qəbul etdiyini bəyan etmiş oldu. Xüsusilə də Rusiyanın Ukrayna hərbi müdaxiləsindən sonra Avropanın enerji təhlükəsizliyi ilə bağlı yaranmış təhdidlərin qarşısının alınması və Avropanın enerji təhlükəsizliyinin təminində Azərbaycanın mühüm rolu bir daha bəyan edilmiş oldu.

Hesab edirəm ki, həm bu səfərin, həm də imzalanan bu sənədlərin mətbuata, ictimaiyyətə edilən bəyanatların mühüm tərəflərindən biri də Azərbaycanın nə qədər etibarlı bir tərəfdaş olduğu, eyni zamanda Avropa üçün nə qədər əhəmiyyətli bir gücə sahib olduğunun bəyan edilməsi idi. Burada maraqlı məsələlərdən biri odur ki, Avropa İttifaqının Cənubi Qafqazda sülh prosesinin əldə olunmasında iştirakçıya çevrilməsi prosesləri fonunda Avropa İttifaqının həm də Azərbaycana enerji tərəfdaşı kimi yanaşması məsələsidir. Əldə olunmuş razılaşmaya əsasən Azərbaycan tərəfi qısa bir müddət ərzində Avropaya qaz ixracını 2 dəfəyə yaxın artıracaqdır. Bu həcm təxminən 2027-ci ildə 2 milyard kub metrə çatacaq. Təbii ki, artan Avropa bazarı tələbatı fonunda o qədər də böyük həcm olmasa da indiki dövrdə Avropa üçün enerjinin təmin olunması üçün ciddi mənbələrdən birinə çevrilib.

Digər vacib məqam ondan ibarətdir ki, Azərbaycan həm də enerji daşıyıcılarının tranziti ölkəsinə çevrilib və Azərbaycanın Orta Asiya ölkələri ilə, xüsusilə Qazaxıstanla, Türmənistanla çox ciddi münasibətlərin formalaşması Orta Asiya enerji mənbələrinin də Azərbaycan üzərindən Avropaya daşınmasını formalaşdırır. Ötən il Azərbaycan və Türkmənistan arasında mübahisəli yataq kimi qiymətləndirilən qaz yatağı Dostluq yatağı adlandırılaraq birgə istismarı ilə bağlı razılaşma imzalandı. Bu razılaşmadan sonra Türkmənistan qazı Azərbaycan üzərindən Avropaya çıxarıldı. Hesab edirəm ki, Azərbaycan və Avropa Komissiyası timsalında Avropa İttifaqı ilə əldə olunmuş bu razılaşma Azərbaycan dövlətinin qlobal gücünü və nüfuzunu daha da artırmış oldu. Son dövrlər Azərbaycanın əldə etdiyi uğurlar bir daha təsdiq edilmiş oldu. Eyni zamanda 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi uğurların beynəlxalq səviyyədə qəbuluna addım atılmış oldu. Dünyada baş verən proseslərdə aparıcı rola sahib olan Avropa İttifaqı Azərbaycanı strateji müttəfiq qəbul etməklə Azərbaycanın irəli sürdüyü şərtləri qəbul etmiş oldu. Azərbaycanın regional gücə çevrilməsi daha da asanlaşdı. Düşünürəm ki, qarşıya qoyulan məqsədlərə addım-addım irəliləcəyik. Bu razılaşma Azərbaycanın gücünə güc qatmış olacaq”.

***Abutel İlhamqızı***

# "MEDİA-nın dəstək verdiyi bütün qəzetlərdə əsaslı dəyişiklik özünü göstərir"

“İKT-nin sürətli inkişafı ilə müşayət olunan dəyişimlər qəzetlərə münasibətdə xüsusi və həssas yanaşma tələb edir ki, MEDİA Agentliyi də bu çağırışlardan çıxış edərək yeni trendlərə uyğunlaşma prosesində çap mediasına dəstəyini davam etdirir”. SİA xəbər verir ki, bu barədə Azərtac-a müsahibəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib.




O, qeyd edib ki, dövlət dəstəyinin məqsədi çap mediası subyektlərinin yalnız biznes strukturu kimi formalaşmasına yardım etmək deyil, texniki imkanlar baxımından onlayn media ilə bərabər olmayan rəqabət şəraitində ciddi fikir tribunası kimi qəzetlərin ayaqda qalmasına kömək göstərməkdir: ”Başqa sözlə desək, dövlət yazılı medianın timsalında Azərbaycan dilinin inkişafına, ənənəvi publisistik düşüncənin yaşamasına və eyni zamanda cəmiyyətdə plüralizmin möhkəmlənərək sərhədlərinin genişlənməsinə dəstək göstərir. MEDİA Agentliyi keçən ilin ikinci yarısında qəzetlərə dəstəyin yeni mexanizmini tətbiq etdi ki, bunun da keyfiyyət dəyişikliyinə gətirib çıxaracağını, ənənəvi mediadan yeni media müstəvisinə konvergensiya prosesisini sürətləndirəcəyini hesablamışdıq”.

Ə.İsmaylov qeyd edib ki, MEDİA Agentliyinin dəstək verdiyi 6 gündəlik, 10 həftəlik olmaqla bütün qəzetlərdə, habelə onların eyni adlı veb-saytlarında əsaslı dəyişiklik, müasirləşmə özünü göstərir: ”Bir sıra qəzetlərimiz ənənəvi A3 formatı dəyişərək yeni tərtibatda B2 formata keçimişlər, qəzetlərin əksəriyyəti artıq tam rəngli nəşr olunmaqdadırlar. Elə çap mediası subyeyktlərimiz var ki, tərtibatı əsaslı formada dəyişilib, köhnə forma və qəlblərdən imtina olunub. Məsuliyyətlə deyə bilərik ki, çoxşaxəli konvergensiya prosesinin ayrılmaz elementi olan qəzet saytlarının yenidənqurulması prosesi artıq başa çatmışdır. MEDİA Agentliyi ümumi dəstək zərfində qəzet saytlarının inkişaf etdirilməsini öhdəlik kimi irəli sürmüş və bunun üçün birfəlik vəsait ayımış, eyni zamanda aylıq dəstək göstərməkdə də davam edir. Əksər qəzetlərimizin saytları ya yenidən qurulmuş, ya da əsaslı şəkildə dəyişilmişdir və bunu nəticəsi olaraq deyə bilərik ki, qəzet saytları onlayn media subyektlərindən geri qalmır, əksinə məzmun yaratmaq, əhəmiyyətli kontent vermək baxımından fərqlənə bilirlər. Yazılı medianın müasir simasının formalaşması yönümündə konseptual yanaşmamız gələcəyə hesablanıb, ona görə bu proses davamlı xarakter daşıyır. Hazır qəzet mətnlərinin saytlara yüklənməsi hələ yeni media demək deyildir. İrəlidə müasir qəzetçiliyin yazı üslubu, ənənəvi mətnlərdən ”hipermətn”lərə keçid, mövzu təqdimatı, qəzet məhsulunun tək yazılı deyil müxtəlif versiyalarda hazırlanıb populyarlaşdırılması və s. kimi sırf jurnalist yaradıcılığı ilə bağlı məsələlərin həllinə nail olmalıyıq. Bu gün Azərbaycanın media subyektləri arasında hansı formatda çıxmasından asılı olmayaraq qəzetlərin intelektual potensialı yüksəkdir”.

# “Azərbaycan Ermənistanın düşdüyü çıxılmaz vəziyyətdən yeganə çıxış yolunu dəfələrlə göstərib”

***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın iyulun 16-da Tbilisidə görüşü region ölkələrinin diqqət və marağına səbəb olub. Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü politoloq Tengiz Txilava söyləyib. Onun sözlərinə görə, Ukraynadakı müharibə böyük diqqət və böyük maraq doğurur, lakin təbii ki, regional hadisələri, xüsusilə dövlətlərarası münaqişələrin həllini də unutmaq olmaz.***




”Nazir Ceyhun Bayramovun dövlətlərarası münasibətlərin münaqişədən sonrakı reallıqlar əsasında nizamlanmasının vacibliyi ilə bağlı bəyanatı onu göstərir ki, Azərbaycan öz mövqelərində möhkəm dayanıb və münaqişənin bütün illəri ərzində tutduğu çox aydın xətti davam etdirir”, - deyə politoloq qeyd edib.

O bildirib ki, çox güman Ermənistan rəhbərliyi bəzi ölkələrin münaqişəyə rəsmi İrəvanın xeyrinə müdaxiləsi ilə bağlı müəyyən illüziyalar yaratmağa başlayır. Keçmişdə isə bu cür cəhdlər ayrı-ayrı siyasətçilərin qeyri-müəyyən bəyanatları ilə məhdudlaşırdı. Sonralar isə bu bəyanatlar çox vaxt onlar və ya onların ölkələrinin rəsmi dairələri tərəfindən təkzib edilirdi. Xüsusilə nəzərə alsaq ki, indi nə Rusiya, nə də Avropa üçün Ermənistan o qədər də əhəmiyyət kəsb etmir, o zaman bu ölkə rəhbərliyindən məsələnin real həlli istiqamətində konkret və müstəqil addımlar gözləmək olar.

T.Txilava deyib: ”Azərbaycan Ermənistanın düşdüyü çıxılmaz vəziyyətdən yeganə çıxış yolunu dəfələrlə açıq şəkildə göstərib. Azərbaycanın ərazi bütövlüyünün tanınması, Qarabağda vəziyyəti gərginləşdirmək cəhdlərinin dayandırılması, müxtəlif layihələrin həyata keçirilməsi yolu ilə regional əməkdaşlığa cəlb olunması - bu, konkret yoldur. Çox güman ki, Ermənistan gec-tez bu yoldan keçməli olacaq”.

Görüşün Tbilisidə keçirilməsinin çox xoş olduğunu bildirən siyasətçi deyib: ”Gürcüstan regional siyasətini daha da gücləndirməlidir. Burada bizim qonşu dövlətlərin prezidentləri səviyyəsində görüş keçirilsə, daha xoş olar. Əminəm ki, sonda biz regionun üç ölkəsinin real, səmimi əməkdaşlığının və mehriban qonşuluğunun şahidi olacağıq”.

# Azərbaycan və Türkiyə XİN başçıları arasında telefon danışığı olub

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla türkiyəli həmkarı Mövlud Çavuşoğlu arasında telefon danışığı olub. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyindən məlumat verilib. Telefon danışığı zamanı, iki qardaş ölkə arasında əlaqələrin hazırki səviyyəsi və Cənubi Qafqazdaki vəziyyət müzakirə edilib.**



# "Media cəmiyyətin informasiya tələbatını ödəyərkən məsuliyyət hissini unutmamalıdır"



***"Bu gün ölkəmizdə demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün təsisatların, o cümlədən azad mətbuatın inkişafı istiqamətində biri-birindən əhəmiyyətli addımlar atılır. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev bu fikri də xüsusi qeyd edir ki, mətbuatın inkişafı hər bir ölkənin inkişaf səviyyəsinin göstəricisidir.***

Əminliklə demək olar ki, Azərbaycanda media üçün yaradılmış bu cür əlverişli şəraitə bəlkə də heç dünyanın inkişaf etmiş ölkələrində belə rast gəlmək mümkün deyil. Azərbaycanda internet azaddır, ölkə əhalisinin 85 faizindən çoxu internet istifadəçisidir. İnternetin azad olduğu ölkədə mətbuat azadlığının boğulmasından danışmaq qeyri-mümkündür. Bəzi beynəlxalq hüquq müdafiə təşkilatları hesabatlarında Azərbaycanı "qeyri-azad ölkə" kimi təqdim edəndə Azərbaycan dövləti onlara cavab olaraq bildirir ki, ölkəmizdə internet və sosial şəbəkələr üzərində hər hansı inzibati nəzarət yoxdur və bu, medianın müstəqilliyinin daha bir göstəricisidir. Təbii ki, sərhəd, məkan, zaman tanımayan bugünkü qlobal informasiya mühiti şəraitində ölkə mətbuatı da öz növbəsində fəaliyyətini yeni aktual çağırışlara uyğun qurmalıdır.

Zamanın, dövrün tələblərinə uyğun təkmilləşən, yeniləşən Azərbaycan mətbuatından ictimaiyyətin gözləntiləri hər zaman müzakirə olunan məsələlər sırasındadır. Bu müzakirələrin əsas mövzusu milli informasiya məkanının təhlükəsizliyini qorumaq, dövlətin, xalqın maraqlarını həmişə uca tutmaq, peşə etikasına riayət etmək, obyektivlik, qərəzsizlik prinsipini daim fəaliyyətində əsas götürməkdir. İctimaiyyətin bu gün mətbuatdan gözləntisi isə tarixi Zəfəri ilə dünyaya səs salan, adını çoxəsrlik tariximizə qalib ölkə kimi yazan Azərbaycanın postmünaqişə dövrünün reallıqlarını ölkə və dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdırmaqdır. Azərbaycanın tarixi həqiqətlərinin təbliğində üzərinə düşən vəzifəni şərəflə yerinə yetirən mətbuatımızın 44 günlük İkinci Qarabağ müharibəsi zamanı göstərdiyi fədakarlıqlar dövlət başçısı İlham Əliyev tərəfindən yüksək dəyərləndirilir. Azərbaycan Prezidenti ötən il Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalı çərçivəsində jurnalistlərlə görüşündə də bu kimi məqamlardan geniş bəhs edərək hazırkı dövrün tələblərinin nədən ibarət olduğunu açıqladı". Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə onu da əlavə edib ki, tarixi Zəfərimizin reallıqları bütün sahələrdə islahatların dərinləşdirilməsini bir tələbə çevirdi: "Şübhəsiz, cəmiyyətin gözgüsü olan mətbuat bu prosesdən kənarda qala bilməzdi. Dövlət başçısı İlham Əliyevin "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı dövrün çağırışlarını, cəmiyyətin yazılı və elektron KİV-lərdən gözləntilərini özündə tam şəkildə ehtiva edib. Azərbaycanda medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə imzalanan həmin sənədə uyğun olaraq "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradıldı."

Baş redaktor mətbuatdan gözləntilərə diqqət yetirməyin səbəbsiz olmadığını xüsusi vurğulayıb: "Son zamanlar bir sıra mətbu orqanlarda intihar halları ilə bağlı xəbərlərin geniş yayılmasını təəssüf hissi ilə qeyd edirik. Yazının əvvəlində mətbuatın ictimai fikrə təsir imkanlarının böyüklüyünü diqqətə çatdırdıq. Bu halda cəmiyyətə təqdim olunan informasiyaların obyektivliyi ilə yanaşı, hadisələrin baş verməsə səbəblərinin düzgün araşdırılmasına, yanlış şərhlərin ölkə ictimaiyyətində doğuracağı ajiotaja diqqət yetirmək gərəkdir. Baxmayaraq ki, bəzi media subyektləri belə səpkili informasiyalardan özlərinin oxucu auditoriyalarını genişləndirmək üçün bir vasitə kimi bəhrələnməyə çalışırlar. Amma bunun yaş kateqoriyasından asılı olaraq insanlarda, cəmiyyətdə hansı fəsadları yaradacağını da unutmamalıyıq. Bu informasiyalar sırasında daha çox gənclərin intiharının qabardılması, ictimailəşdirilməsi həyəcan təbilinin çalınmasına səbəb olmaya bilməz. Bu baxımdan ki, hər gün bu səpkili informasiyaların yükünün artırılması sanki belə halların baş verməsinin zəruriliyi barədə rəy yaradır ki, bundan da əziyyət çəkən, zərbə alan gənclikdir. Bir mühüm məqamı da unutmayaq ki, istər yaşanan hər hansı bir hadisə, istərsə də mətbuat səhifələrinə çıxarılan informasiyaların insanlar tərəfindən qəbulunda da fərqliliklər mövcuddur. Bu kimi tükürpərdici, narahatlıq doğuran məlumatların təqdim edildiyi auditoryanı da göz önünə gətirməyə böyük ehtiyac var."

Vüqar Rəhimzadə belə narahatlıq doğuran informasiyalar sırasında son zamanlar bəzi qüvvələrin Vətən müharibəsi qazilərinin adından sui-istifadə etmək cəhdlərini qeyd edib: "Bu, danılmaz faktdır ki, tarixi Zəfərimizin qəhrəmanları olan şəhidlərimizin ailələrinə və qazilərə dövlətin diqqət və qayğısı davamlı xarakter daşıyır. Bunu əsaslandırmaq üçün istər onların sosial məsələlərinin, istərsə də qazilərimizin sağlamlığı ilə bağlı problemlərinin həlli istiqamətində atılan addımlara diqqət yetirmək kifayətdir. Bəzi media orqanlarında yer alan intihar hadisələri arasında qazilərimizin də adlarının hallandırılmasının arxasında hansı niyyətlərin dayandığı məlumdur. Bu, baş verən hadisədən öz çirkin niyyətini həyata keçirmək üçün istifadə edənlər üçün adi görünsə də, cəmiyyət onların qəhrəmanlığı, şücaəti sayəsində Zəfər tariximizin yazılmasından keçirdiyi qürur hissi ilə paralel olaraq böyük mənfiliklə qabardılan hadisələrin şokunu yaşayır."

Baş redaktor onu da əlavə edib ki, belə informasiyaların təqdimatında jurnalist peşəkarlığı baxımından yol verilən qüsurlar cəmiyyətdə narahatlıq yaratmaqla yanaşı, haqlı olaraq ictimai qınağa səbəb olur: "Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin bu günlərdə yaydığı açıqlamada vurğulanır ki, Azərbaycan Respublikasının Audiovizual Şurası və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən bu ilin aprel ayında ölkənin bütün media subyektlərinə tövsiyə olunmuş "Redaksiya siyasəti və peşə etikası qaydaları"nda qeyd olunduğu kimi, intihara cəhdlə bağlı xəbərlərin təsviri təqlid hissi oyatmamalıdır. İntiharın üsulunu və hadisənin detallarını açıqlamaq, başlığa çıxarmaq, mübaliğəyə yol vermək arzuolunan deyil, eyni zamanda, jurnalist peşəkarlığının göstəricisi hesab edilə bilməz."

Vüqar Rəhimzadə medianın uşaqlara münasibətində "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə birmənalı şəkildə əməl edilməsinə çağırışların əsas yer tutduğunu bildirib: "Ümumilikdə unutmaq olmaz ki, peşəkar media ictimai əhəmiyyətli informasiyalarla cəmiyyəti məlumatlandırmaq kimi şərəfli və məsuliyyətli missiyanı yerinə yetirir. Bu, o demək deyil ki, baş verən hadisələrə laqeyd yanaşılır, sıradan bir olay kimi qəbul olunur. Sadəcə intihar halları və bu qəbildən olan digər təzahürlərlə bağlı materialları təqdim edərkən medianın ictimaiyyət qarşısındakı məsuliyyətinə diqqətlə yanaşılmalı, peşəkar həssaslıq nümayiş etdirilməlidir. Hər bir məsələnin həllində maarifləndirmə işinin yüksək səviyyədə qurulması əsasdır. Belə halların baş verməməsi üçün onları mətbuat səhifələrinə çıxarıb ictimailəşdirmək yox, baş verənlərin səbəblərinin araşdırılması, belə hallara yox demək üçün maarifləndirici tədbirlərin işıqlandırılması, təhlili yazıların verilməsi gərəkdir. Hər bir mətbu orqan qarşısında dayanan prinsiplərə əməl edib, ictimaiyyətin informasiya tələbatını onun gözləntiləri fonunda ödəməklə daha böyük rəğbət qazanar. İntihar hadisələrinin təbliği vasitəsilə oxucu auditoriyasını genişləndirmək cəhdi heç bir media subyektinə başucalığı gətirməz."

# Bəhruz Quliyev: "Mənəvi-psixoloji silah həm də cəmiyyətə tuşlanıb"



***"Son dövrlərdə informasiya texnologiyalarının sürətli inkişafı və sosial media adlandırılan bir sistemin meydana çıxması media sahəsində ziddiyyətli vəziyyət yaradıb. Belə ki, artıq internet saytlar və sosial şəbəkə kanalları özlərini media kimi təqdim edərək zərərli informasiyaları cəmiyyətə ötürə bilirlər.***

Bu səbəbdən, Medianın İnkişafı Agentliyinin bu mövzuda açıqlamasının obyektiv yanaşma və düzgün çağırış olduğunu düşünürəm". SİA xəbər verir ki, bunu "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev bildirib.

Baş redaktorun sözlərinə görə, son zamanlar bir sıra media subyektləri və sosial şəbəkə kanalları tərəfindən intihar halları və cəmiyyət əxlaqına zərbə vuran materialların yayımlanması cəmiyyətdə narahatlıq yaradıb və haqlı olaraq ictimai narazılığa səbəb olub: "Nəzərə almaq lazımdır ki, media həm də mənəvi-psixoloji silahdır və bu silah həm cəmiyyətə, həm də bundan istifadə edənlərin öz ailəsinə tuşlanıb. Medianın 3 əsas funksiyası var ki, bunlar da məlumatlandırma, maarifləndirmə və əyləndirmədir. Bu gün özünü media kimi qələbə verən subyektlər isə bu funksiyaların əvəzinə özləri üçün yeni funksiyalar müəyyənləşdiriblər - aldatma, təşviş salma, təhrik etmə. Bunu bir çoxları bilməyərəkdən etsə də, bilərəkdən edənlər də az deyil. Normal mediada əhalinin həssas qrupunun, uşaqların, yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vuran məlumat və təsvirlərdən istifadə olunmamalıdır. Bizdə ictimai qınaq da zəif olduğundan, saxta xəbərlər yayan, zərərli təbliğat aparan subyektlər qınaq və etiraz əvəzinə izləyici kütləsi və müvafiq olaraq da pul əldə edir. Halbuki, əhalinin maariflənmə səviyyəsi yüksək olmalı, cəmiyyətə zərər vuran belə media subyektləri və sosial şəbəkə kanalları blok edilməlidir".

B.Quliyevin fikrincə, bu sahədə anarxiyanın qarşısı alınmalıdır: "Yeni qəbul olunmuş "Media haqqında Qanun" bu halları tənzimləyəcək qanun olsa da, hələlik qanunun tələbləri tam tətbiq olunmadığından belə hallara çox rast gəlinir. Amma bəzi məsələlər var ki, heç qanunla da tənzimlənmir. "Vətəndaş jurnalistikası" adlandırılan və peşə olaraq deyil, hobbi olaraq həyata keçirilən fəaliyyət bu Qanunun təsir dairəsinə daxil deyil. Məsələn, qanun sosial şəbəkələrin və "blogger"lərin fəaliyyətini tənzimləmir. Amma etik kodekslər, vicdan və sosial məsuliyyət olmalıdır ki, mən nə yazıram, nəyi təbliğ edirəm, cəmiyyətə nə verirəm. Bu, hər şeydən əvvəl insanlıq, vətəndaşlıq məsələsidir. Bu məsələlərə həm ictimai, həm də dövlət nəzarətinin gücləndirilməsinə ehtiyac böyükdür. Əksər ölkələrdə belədir. Əks halda media və sosial şəbəkə kanalları cəmiyyətə fayda verməli olduqları halda zərər vermiş olurlar. Məsələn, nüfuzlu sosial araşdırma mərkəzlərinin araşdırmalarına görə, intihar, zorlama, qətl xəbərlərinin mediada geniş yayılması insanların şüuraltında yerləşərək tədricən psixologiyanı dəyişir və cəmiyyətdə həmin halların artmasına səbəb olur. Xüsusən də uşaq və gənclərdə bu daha pis nəticə verir. İndi əksər uşaqların əlində smartfon var və onların bu tip zərərli məlumatlara çıxışı çox rahatdır. Bu səbəbdən belə məsələlərə ciddi nəzarət edilməlidir".

# Qazaxıstandan Avropaya açılan yeni qapı - AZƏRBAYCAN

***Bu gün Qazaxıstanın ixrac neftinin demək olar ki, 97 faizi Rusiya vasitəsilə nəql olunur. Tranzit marşrutlarının hipotetik şəkildə bağlanması halında Qazaxıstan bütün alternativ istiqamətlərdən istifadə etməli olacaq. Baxmayaraq ki, Krasnodar Regional Məhkəməsi Xəzər Boru Kəməri Konsorsiumunun (XBKK) apellyasiya şikayətini təmin edib və Primorski Rayon Məhkəməsinin qərarını dəyişdirərək, şirkətə 30 gün ərzində fəaliyyətini dayandırmaq əvəzinə 200 min rubl cərimə kəsib. XBKK Qazaxıstan neftinin nəqlini bundan sonra davam etdirə bilər. Amma Qazaxıstan artıq xaricə xammal tədarükünü diversifikasiya etmək planlarını açıqlayıb.***

XBKK ASC-dən bildirilib ki, Konsorsium fasiləsiz dövriyyəli müəssisədir, onun fəaliyyətinin dərhal dayandırılması istehsal prosesi üçün dönməz nəticələrə gətirib çıxara bilər, neftin nəqlinə qoyulan texnoloji tələblər istehsal fəaliyyətinin dərhal və eyni vaxtda dayandırılmasına imkan vermir. Buna görə də konsorsium rayon məhkəməsinin qərarından apellyasiya şikayəti verib.

### Neft və sanksiyalar



Bu ilin may ayında "Rostransnadzor"un Cənub Departamenti XBKK-da plandankənar yerində yoxlama aparıb, bu zaman neft dağılmalarına qarşı mübarizə planının bir neçə pozuntusunu aşkar edib. İyunun 6-da şirkətlər tərəfindən müəyyən edilmiş qanun pozuntularının cari il noyabrın 30-dək aradan qaldırılması barədə göstəriş verilib. Bununla belə, dövlət qurumu təyin olunmuş vaxtı gözləməmək qərarına gəlib və rayon məhkəməsindən konsorsiumu dərhal cəzalandırmağı xahiş edib, bunu iyulun 5-də ediblər. Lakin bir neçə gün sonra vilayət məhkəməsi şirkətin vəsatətini təmin edib və fəaliyyətinin dayandırılmasını cərimə ilə əvəz edib. Yoxlanışın özü Rusiya baş nazirinin müavini Viktoriya Abramçenko tərəfindən sanksiyalaşdırılıb. Şirkət pozuntuları "mümkün qədər tez" aradan qaldıracağını vəd edib. Bununla belə, noyabra qədər təftiş qurumlarından XBKK-ya qarşı neft kəmərinin istismarını dayandırmağa imkan verən başqa iddiaların olmayacağına heç bir zəmanət yoxdur.

Baş verənlərlə bağlı müxtəlif fikirlər var. Bəzi ekspertlər Qazaxıstanın ixrac neftinin təxminən 80%-nin daşındığı XBKK-nin Rusiya hakimiyyəti tərəfindən "vurulması" kimi qəbul edirlər. Bu da Qazaxıstanın "dünya və Avropa bazarlarında vəziyyəti sabitləşdirmək" üçün öz karbohidrogen potensialından istifadə etmək istəyinə cavabdır. Bu barədə prezident Qasım-Jomart Tokayev Avropa Şurasının sədri Şarl Mişellə telefon danışığı zamanı deyib. Digərləri hesab edir ki, Moskva bununla da Qazaxıstan hakimiyyətinin Qərbin sanksiyalarına məruz qalmış Rusiya və Belarusa malların tədarükünə qadağa qoymaq niyyətinə etiraz edib.

Avropaya neft ixracına gəlincə, Qazaxıstan artıq Qərbə ildə 50 milyon tondan çox xammal satır. Rusiya isə Avropaya ötən il 108 milyon tona yaxın xam neft ixrac edib. Halbuki Qazaxıstanın təkbaşına Avropa bazarında Rusiya neftini əvəz edə bilməsi mümkün deyil. 2021-ci il üçün bütün ixrac həcmi 67,6 milyon ton təşkil edib. Bu il üçün planlar 69 milyon tondur.

XBKK-nın fəaliyyətinin dayandırılması Qazaxıstanın Qərb sanksiyalarına əməl etmək planları ilə bağlı ola bilər. Rusiyanın "Kommersant" qəzeti xəbər verir ki, Qazaxıstan Respublikasının Maliyyə Nazirliyi "İxrac zamanı müəyyən növ malların Qazaxıstan Respublikasının ərazisindən Rusiya Federasiyasının və Belarus Respublikasının ərazisinə hərəkətinin uçotu üzrə" pilot layihənin həyata keçirilməsi qaydalarının təsdiq edilməsi haqqında" əmr layihəsini ictimai müzakirəyə çıxarıb. Sərəncamın qəbulu bu ölkələrə bir sıra malların tədarükünü bağlaya bilər. Nəşr yazır ki, "pilot"un Rusiya və Belarusa sanksiya tətbiq edilən malların bütün tədarüklərinə şamil edilib-edilməməsinin aydınlaşdırılması xahişi ilə Qazaxıstan hökumətinə edilən sorğudan sonra sənəd elektron hökumətin saytından çıxarılıb.

Bu arada, Avropa İttifaqı hələ də Qazaxıstan neftinin ən böyük alıcısıdır. Avropa təkcə istehlakçı deyil, həm də satıcı kimi neft-qaz məhsullarının fasiləsiz təchizatında maraqlıdır. Bu isə o deməkdir ki, Qazaxıstandan neft ixrac etməklə Avropa Rusiyadan karbohidrogen asılılığının azaldılmasına çalışır və bu, aktual olaraq qalır.

### Xəzər marşrutu

Keçən həftə Rusiya məhkəməsi XBKK-nın işini dayandırmaq barədə qərar qəbul etdikdən bir gün sonra Kasım-Jomart Tokayev ölkənin nəqliyyat və tranzit potensialının inkişafı ilə bağlı iclas keçirib və orada neft tədarükünün şaxələndirilməsinin vacibliyini açıqlayıb. Eyni zamanda o, Transxəzər marşrutunu prioritet ixrac istiqaməti adlandırıb. Prezident "KazMunayQaz" milli neft-qaz şirkətinə onun həyata keçirilməsi üçün ən yaxşı variantı, o cümlədən Tengiz layihəsindən sərmayədarları cəlb etmək imkanını, hökumətə "Samruk-Kazyna" ilə birlikdə Atırau-Kenkiyakın potensialını artırmağı, Kenkiyak-Kumkol neft kəmərləri, Xəzər dənizindəki limanları dəyişdirmək və donanmanı gücləndirməyi tapşırıb. Prinsipcə, bütün bunlar Rusiyaya neft ixracı üçün başqa alternativ yol açmaq üçün atılmalı olan əsas addımlardır.

"Qazaxıstan Xəzər Nəqliyyat Sistemi" (KCTS) adlanan bu marşrutun tikintisi hələ 2000-ci illərin ortalarında elan edilmişdi. 2007-ci ildə hətta bu layihə üçün KMG, Chevron, ExxonMobil və bir sıra digər xarici şirkətlərin iştirakı ilə konsorsium yaradılıb. Güman edilirdi ki, Mangistaudakı Tengiz və Kaşaqan neftinin Xəzər sahilinə nəqlinə, sonra isə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinə göndərilmək üçün tankerlərlə Bakıdakı dəniz terminalına daşınmasına imkan verəcək infrastruktur yaradılacaq.

2016-cı ilin payızında Milli Məclis "Qazaxıstan Respublikası ilə Azərbaycan Respublikası arasında Qazaxıstan Respublikasından neftin Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə BTC sistemi vasitəsilə beynəlxalq bazarlara nəqlinin asanlaşdırılmasına dəstək haqqında Sazişin təsdiq edilməsi haqqında" qanun layihəsini təsdiqləyib. Sonra Azərbaycanın Energetika Nazirliyi bəyan edib ki, tərəflər Eskene-Kurık-Bakı neft nəqli sistemini qurmağı planlaşdırırlar. Layihəyə Tengizdə neft nasos stansiyasının, "Tengiz - Opornı - Uzen - Aktau" magistral neft kəmərinin, neft terminalının və Kurıkda yeni limanın tikintisi, həmçinin Aktau limanının yenidən qurulması və genişləndirilməsi daxildir. İlkin mərhələdə yeni kəmərin ötürücülük qabiliyyəti ildə 25 milyon ton neft təşkil edəcək, gələcəkdə isə 56 milyon tona qədər genişləndiriləcək. Layihə 5 milyard dollar dəyərində qiymətləndirilirdi, onun 50%-i Eskene-Kurık neft kəmərinin tikintisinə (Kaşaqan neftinin çatdırılması üçün) yatırılmalı idi. Güman edilirdi ki, KCTS yatağın işlənməsinin ikinci və üçüncü mərhələlərində Kaşaqandan neftin ixracını təmin edəcək. İndi hökumət və Şimali Xəzər layihəsinin iştirakçıları yalnız dəniz yatağında hasilatın artırılmasının detallarını müzakirə edirlər.



Azərbaycanda neft hasilatının azalması (30% - 2010-2021-ci illərdə sutkada 1 milyon bareldən təqribən 0,74 milyon barelə qədər) nəzərə alınmaqla, BTC səhmdarları və Qazaxıstan ixracatçıları üçün xam neftin bir hissəsinin yenidən istiqamətləndirilməsi Qazaxıstandan bu boru kəmərinə materialların gətirilməsi hər iki tərəf üçün faydalı olardı. Ötən il layihə gücü ildə 60 milyon ton olan BTC-nin faktiki yüklənməsi 26 milyon ton olub.





Bununla belə, Transkapiya marşrutu Qazaxıstanın öz neftini yönləndirə biləcəyi yeganə istiqamət deyil. Atasu-Alaşankou və Kenkiyak-Kumkol magistral neft kəmərlərini özündə birləşdirən Qazaxıstan-Çin Boru Kəməri (KCP) sistemi də mövcuddur. KazTransOil (KMG-nin törəmə şirkəti) bu müəssisədə 50% paya malikdir. Bununla belə, ildə 20 milyon ton layihə gücünə çatmaq üçün aralıq neft nasos stansiyaları tikmək lazımdır. Bu gün kəmər öz potensialından aşağı işləyir. Yəqin buna görə də prezident Atırau-Kenkiyak və Kenkiyak-Kumkol neft kəmərlərinin ötürücülük qabiliyyətini artırmağı tapşırıb ki, neftin bir hissəsini bu marşruta keçirmək mümkün olsun. İndi sistem daha çox respublika daxilində Çin və Qazaxıstan şirkətləri tərəfindən idarə olunan yataqlardan neft emalı zavodlarına, habelə Rusiya neftinin (təxminən 10 milyon ton) Çinə nəqli üçün işləyir. Energetika Nazirliyinin məlumatına görə, 2021-ci ildə Atasu-Alaşankou vasitəsilə cəmi 966 min ton Qazaxıstan nefti ixrac edilib. Baxmayaraq ki, ötən il ərzində Çin Qazaxıstandan 3,6 milyon ton neft alıb. Məlum olur ki, qalanları XBKK vasitəsilə bütün Rusiyadan keçərək tankerlərlə Çinə çatdırılıb.

Qazaxıstan həmçinin Mərkəzi Asiya ölkələrinə, xüsusən də xammal çatışmazlığı səbəbindən neft emalı zavodlarının bəzi güclərindən istifadə olunmayan Özbəkistana neft ixracını təşkil edə bilərdi. Özbəkistan neft emalı zavodlarının ümumi tələbatı ildə 10 milyon ton təşkil edir. Bundan əlavə, neft məhsullarının istehsalını artırmaq və hazırda Rusiya yanacağını idxal edən Qırğızıstan və Tacikistana ixrac etmək mümkündür.

Xatırladaq ki, ötən il Qazaxıstandan 67,6 milyon ton neft ixrac edilib, onun 78 faizindən çoxu və ya 53 milyon tondan çoxu XBKK xətti ilə göndərilib. Demək olar ki, bütün həcm Tengiz, Kaşaqan və Qaraçaqanak yataqlarından təmin edilib. İxracın daha 18%-i və ya 12 milyon tonu Atırau-Samara neft kəmərinə göndərilib və sonra Rusiyanın "Transneft" şirkətinin boru kəmərləri sistemi vasitəsilə Novorossiyskdəki Qara dəniz limanına və ya Baltikyanı Ust-Luqa limanına çatdırılıb. Beləliklə, bu gün Qazaxıstanın ixrac neftinin demək olar ki, 97%-i Rusiya vasitəsilə nəql olunur. Rusiya hakimiyyəti tərəfindən XBKK və ya digər marşrutların növbəti dəfə bağlanması halında, neft ixracının dayanmaması üçün Qazaxıstan bütün alternativ istiqamətlərdən istifadə etməli olacaq, eyni zamanda Azərbaycandan Türkiyəyə uzanan BTC vasitəsilə.

***V.VƏLİYEV***

# Aqrar siyasətin yeni mərhələsi: çətinliklər və imkanlar

***Artan əhalinin ərzaq və digər kənd təsərrüfatı məhsullarına olan tələbatının mövcud resurslarla və mövcud texnoloji inkişaf səviyyəsi ilə ödənilməsinin mümkünlüyü hələ də açıq sual olaraq qalır. Kənd təsərrüfatı bu problemlərin öhdəsindən əsasən artıq istifadədə olan torpaqlarda istehsalı artırmaqla, eyni zamanda əkin üçün yalnız qismən yararlı olan torpaqlara daha çox üstünlük verməklə məşğul olmalıdır. Davamlı kənd təsərrüfatı və kənd inkişafı üçün əlverişli mühit yaratmaq üçün həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə milli və beynəlxalq kənd təsərrüfatı, ətraf mühit və makroiqtisadi siyasətlərdə əhəmiyyətli düzəlişlərə ehtiyac var.***

Əsas məqsədi ərzaq istehsalının davamlı şəkildə artırılması və ərzaq təhlükəsizliyinin yaxşılaşdırılmasıdır. Bu, təhsil təşəbbüsləri, iqtisadi stimulları və qida baxımından adekvat qida ilə sabit təchizatı, əhalinin həssas qruplarının bu məhsullara çıxışını təmin edəcək müvafiq yeni texnologiyaların inkişafını nəzərdə tutur. O cümlədən satış üçün istehsal; yoxsulluğun azaldılması üçün məşğulluq və gəlir gətirən şəraitin təmin edilməsi; təbii ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin mühafizəsi kimi məsələlər də mühüm rol oynayır.

Müasir dövrdə ənənəvi kənd təsərrüfatı dünyada artan ərzaq tələbatının öhdəsindən gələ bilmir. Hal-hazırda ölkəmizdə və dünyada təbii kənd təsərrüfatı məhsullarının qıtlığı yaşanmaqdadır. Bu problemin rəsmi statistikasına misal olaraq növbəti faktı göstərə bilərik. Məsələn, Birləşmiş Millətlər Təşkilatının Qida və Kənd Təsərrüfatı Təşkilatı dünyada artmaqda olan əhalini qida ilə təmin etmək üçün fermerlərin qarşıdan gələn 30 ildə 70% daha çox qida yetişdirmələrinə ehtiyacın olduğunu iddia edir.

1995-ci ildən başlayaraq iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, kənddə aqrar islahatların, o cümlədən torpaq islahatının həyata keçirilməsi, xüsusilə kolxoz və sovxozların ləğv olunması, onlara məxsus torpağın, malqaranın və əmlakın paylanması, məhsulun qiymətlərinin sərbəstləşdirilməsi, ərzaq və yeyinti məhsulları emal edən sənaye müəssisələrinin özəlləşdirilməsi və s. bu kimi tədbirlər aqrar bölmənin sosial və sahə strukturuna ciddi təsir göstərmişdir.

Ölkəmiz üçün Prezident İlham Əliyevin təsdiq etdiyi dövlət proqramları yalnız kənd təsərrüfatının deyil, həmçinin sosial-iqtisadi və aqrar-ərzaq siyasətinin əsas istiqamətlərindən olan kənd ərazilərinin davamlı inkişafını da təmin edir. Regional inkişaf sahəsində də dövlət proqramlarını yalnız təsdiq etməklə kifayətlənmir, onların həyata keçirilməsi ilə özü bilavasitə maraqlanır. Regionlara səfərlər etmək, vəziyyətlə yerində tanış olmaq, yeni problemləri müəyyən edib aradan qaldırmaq üçün əlavə tədbirlər görmək ölkə başçısının iş rejiminin tərkib hissəsinə çevrilib.



**Milli Məclisin əmək və sosial komitəsinin sədri Musa Quliyev** SİA-ya açıqlamasında qeyd edir ki, kənd təsərrüfatı sektoru bütün dünyada qeyri-neft sektorunun mühüm bir hissəsidir. Həmçinin də Azərbaycanda. Çox yerlərdə, çox zaman dövlətin datasiyası hesabına işləyən bir sektordur. Çünki kənd təsərrüfatı sektorunda maya dəyəri əmək məhsuldarlığına bağlıdır və əmək məhsuldarlığı da çox zaman təbiətin xarakteri ilə əlaqədardır. Yağışlı, günəşli, küləkli havalardan asılı olaraq məhsuldarlıq aşağı da ola bilir, yuxarı da. Buna görə də kənd təsərrüfatı sektoru çox zaman dövlət büdcəsi ilə inkişaf edir. Azərbaycanda da demək olar ki eyni ssenari tətbiq olunur. Ölkəmizdə uzun illərdir ki, aqrar sektor torpaq vergisindən başqa bütün vergilərdən azaddır. Eyni zamanda aqrar sektorda çalışan kənddə yaşayan adamlar əmək haqqı verməklə yanaşı vergilərdən azaddır. Sığorta olunanların sayı artmaqdadır. Bu ona görə aparılır ki, kənd təsərrüfatına həm dövlət dəstək olsun, həm də insanların müəyyən maraqları olsun ki kənd yerlərində yaşasınlar, həmçinin aqrar təsərrüfatla məşğul olsunlar. Ölkəmizdə aqrar sektorun inkişaf etməsi üçün həmçinin dərmanların, gübrələrin alınmasına pul kompensasiyaları təşkil olunur.

Bir neçə dövlət proqramı qəbul olunub, ümumi baza yaradılıb və əsas niyyət ondan ibarətdir ki, kənd təsərrüfatı intensiv istiqamətdə inkişaf etsin. Azərbaycanın əkinə yararlı torpaqlarının sahəsi o qədər də böyük deyil, ona görə də biz intensiv inkişafdan danışa bilmirik amma məhsulu artırmaq və maya dəyərini aşağı salmaq, ərzaq bolluğunu artırmaq üçün dövlət bir neçə proqram həyata keçirir. Müəyyən ərzaq məhsulları ilə böyük bir hissəsini özümüz təmin edirik, müəyyən hissəsini xaricdən alırıq. Elə ərzaq məhsulları da vardır ki, biz onları xarici ölkələrdən gətirməli oluruq və bu bütün dünyada belədir. Hər bir ölkə müəyyən sahələr üzrə ixtisaslaşır ona görə də vacib deyil ki, müəyyən ərzaq məhsullarını özümüz istehsal edək və özümüzü təmin edək. Digər bir məsələ şübhəsiz ki, kənd təsərrüfatını müasir idarəetməyə gətirməsidir. Torpaq var, dövlət var lakin lazımi texnika və idarəetmə proqramlar yoxdur, lazımı biliklər yoxdur. Belə olduğu halda kənd təssərüfatının inkişafından söhbət belə gedə bilməz. Ona görə də bu məsələlərə kompleks yanaşılır, istər kadr çatışmamazlığı, istər gübrə və dərman təminatı, texnoloji təminat bunlar çox vacib məsələlərdir. Bu illərdə fermerlərin qarşısında duran əsas məsələ logistika məsələsidir. Yəni istehsal etdiyi məhsulun qısa müddətdə və az xərclə bazara çıxartması və istehlakçıya çatdırılmasıdır. Bu məsələdə hesab edirəm ki, görüləcək işlərimiz çoxdur. Bir müddət öncə belə bir qızıl tipli səhmdar cəmiyyət yaradılmışdır.

Lakin bildiyimə görə orada uğurlu fəaliyyət göstərə bilməmişdir. Kənd Təsərrüfatı Nazirliyində belə bir şöbə var, lakin o şöbələr öz fəaliyyətini həyata keçirmir. Yəni öncədən kəndliyə sifariş vermək, sifarişin əsasında da müəyyən qədər kredit vermək məhsul hazır olanda isə o məhsulu bazar qiymətinə almaq, saxlamaq və lazım olan müddətdə lazımi yerə çatdırmaq çox vacib bir logistika siyasətidir ki, hələlik ölkəmizdə bu sahədə görüləsi işlər çoxdur. Kənd təsərrüfatı məhsullarının saxlanılması xüsusilə soyuducu kameraları ilə təchizat məsələsi də qarşıda duran problemlərdən biridir. Əlbəttə koronovirus pandemiyası səbəbindən biz məhsulları bir çox ölkələrə çıxarda bilmirik. Burda da ciddi problemlər yaşanır. Rusiya Ukrayna müharibəsinin təsirləri də kənd təsərrüfatı sektorundan yan keçməmişdir.

**Millət vəkili Azər Badamov** isə qeyd edir ki, qlobal ərzaq bazarlarda baş verən dəyişikliklər ölkəmizdə də kənd təsərrüfat sektoruna daha çox diqqətlə yanaşılmasını aktuallaşdırmışdır. Bu gün aqrar sektor dövlət dəstəyi ilə özünün inkişaf dövrünü yaşayır. Belə ki, kənd təsərrüfatı texnikaları, cins



mal-qara, elit toxumların alınması üçün dövlət tərəfindən subsidiyalar, güzəştli kreditlər verilir. İstehsal olunan məhsulların növündən və məhsuldarlığından asılı olaraq fermerlərə stimullaşdırıcı subsidiyalar ödənilir. Aqrar sahə torpaq vergisindən başqa bütün vergilərdən azad olunmuşdur. İri fermer təsərrüfatları yaradılır. Emal sənayesinin dirçəldilməsi istiqamətində tədbirlər görülür. Ona görə də son illər ölkəmizin aqrar sektorunda sıçrayışlı inkişaf baş vermişdir. Demək olar ki, bir çox kənd təsərrüfatı məhsulları ilə özümüzü təmin edirik və ixrac potensialımız da formalaşmışdır. Bu gün qeyri-neft ixracımızın tərkibində kənd təsərrüfatı məhsulları əsas yer tutur. Bununla yanaşı bəzi kənd təsərrüfatı məhsulları idxal etmək məcburiyyətindəyik. Beləki, taxılla özünü təminə keçmək üçün bir çox işlər görülməlidir. Bu il 100 min hektar torpaq əlavə dövriyyəyə buraxılmışdır. Taxılın əkilməsi və məsuldarlığın artırılması istitqamətində tədbirlər davam etdirilir. Dövlət başçımızın kənd təsərrüfatı nazirliyi qarşısında qoyduğu əsas vəzifələrdən biri də taxılın idxalından azad olunması istiqamətində tədbirlərin görülməsidir. Məhz görülən tədbirlər və əldə olunan nəticələr onu deməyimizə imkan verir ki, ölkəmiz yaxın gələcəkdə taxılla da özünü təminə keçə biləcək.

### Ölkəmizdə kənd təsərrüfatı məhsul istehsalçılarını ən çox narahat edən məsələlər hansılardır?

Kənd təsərrüfatı məhsulları istehsalçıları narahat edən məsələlər kimi əkin sahələrinin suvarılması ilə bağlı müəyyən çətinliklər olduğunu qeyd edərdim. Düzdür, son illər əsas kanallar yenilənmiş, təsərrüfatlararası arxlar betonlaşdırılmışdır. Bununla yanaşı bir çox təsərrüfatlarda bu istiqamətdə görülməli işlər kifayət qədər çox qalmışdır. Torpaq kanallarla su çatdırılmasında böyük itkilər baş verir. İqlim dəyişiklikləri suyun həcmini azaldır. Ona görə çalışmalıyıq ki, suvarma su az itkilərlə əkin sahələrə çata bilsin. Təbii ki, suyun əkin sahələrinə vaxtında çatmaması orta məhsuldarlığın aşağı enməsinə gətirib çıxardır. Həm də suvarılan sahələrin müasir innovativ üsullara keçirilməsini vacib hesab edirəm. Müasir üsullarla suvarılma daha az sudan istifadə etməklə daha effektiv nəticələrin əldə olunmasına imkan verir. Hesab edirəm ki, aqrar sahəni primitiv üsuldan texnoloji becərmə üsuluna keçid etməlidir və bu istiqamətdə dövlətin dəstək tədbirləri genişlənməlidir.

Fermerləri narahat edən digər məsələ istehsal etdiyi məhsulları birbaşa bazara çıxara bilməməsi ilə bağlıdır. Yəni, fermerin birbaşa bazara çıxışı olmadığına görə istehsal etdiyi məhsulu aşağı qiymətə sahədən satmasına məcbur olur. Həmin məhsul bazara çatana qədər bir neçə əldən keçir və son satış nöqtəsində malın qiyməti 2-3 dəfə bahalaşır. Hesab edirəm ki, bu məsələnin həll olunması istiqamətində tədbirlər görülməlidir.

Digər bir məsələ regionlarda emal sənayesinin çox az olmasıdır. Məsələn, sovetlər dövründə 5-6 emal müəssisəsi olan rayonlarda bu gün heç bir emal müəssisəsi yoxdur. Emal sektorunda rəqabətin olmaması da fermerləri istehsal etdikləri məhsulları böyük xərclərlə və aşağı qiymətlə uzun məsafəyə daşımalı olub. Və yaxud daşınma rəntabelli olmadığı halda məhsul fermerin əlində qalır və çürüyüb böyük zərərlə qarşılaşdırır. Ona görə də aqrar məhsullar istehsal olunan hər bir rayonda emal sənayesi müəssisələri yenidən qurmalıdır. Bu, həm də regionlarda işsizlik probleminin həll olunmasına yol açar.

### İstehsal olunan yerli məhsulun xarici bazarlara çıxarılmasında hansı çətinliklərlə qarşılaşılır?

Hesab edirəm ki, burada bir çətinlik yoxdur. Hər bir fermer üçün xaricə məhsul ixrac etməsi üçün qapılar açıqdır. Burda olan yeganə problemi yerli istehsalçıların xarici bazarlara malların ixracı ilə bağlı kifayət qədər bilgiyə malik olmaması əsas problemdir. Bu məsələni həll etmək üçün müvafiq qurum tərəfindən regionlarda fermerlər üçün treninqlər keçirilməlidir. Hər bir fermer məhsulun ixracı yollarını bilməlidir. Əgər fermerlərin bu istiqamətdə savadları yerində olsa istehsal etdiyi məhsulları özləri xarici bazarlara çıxardarlar.

ARAŞDIRMA



”Kənd təsərrüfatı sahənin potensialını artırmaq, ondan səmərəli istifadə etmək üçün innovativ texnika və texnologiyaların tətbiqi, istehsalda yeni mütərəqqi üsullardan istifadə vacibdir”. Bu sözləri **Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə** deyib.

O həmçinin qeyd edir, həm yerli istehsal hesabına ölkədə ərzaq təhlükəsizliyini təmin etmək, həm idxaldan asılılığı azaltmaq, həm də bir sıra rəqabətqabiliyyətli məhsullar üzrə ixracı artırmaq, yeni bazarlara çıxmaq üçün geniş imkanlar yaradır. Aqrar siyasətin yeni mərhələsində qarşıda duran əsas məsələlərdən biri kənd təsərrüfatının elektronlaşdırılmasının başa çatdırılması, aqrar xidmətlərin elektronlaşdırılması, məlumat bazalarının formalaşdırılması və təkmilləşdirilməsidir. Bu istiqamətdə atılan mühüm addımlardan biri Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin (EKTİS) yaradılmasını göstərmək olar.



EKTİS-də artıq fermerlər və onların istifadə etdikləri resurslar haqqında vahid məlumat bazası yaradılıb ki, bu, dövlət büdcəsi hesabına subsidiyaların verilməsi sahəsində şəffaflığın artırılmasına, subsidiyaların verilməsi mexanizminin təkmilləşdirilməsinə, Kənd Təsərrüfatı Nazirliyi üçün proqnozlaşdırma, koordinasiya və nəzarət imkanlarının təmin edilməsi kimi əsas istiqamətləri ehtiva edir.

Müasir dövrdə aqrar sahənin inkişafının prioritet istiqamətlərindən biri də innovativ texnika və texnologiyalarda istifadənin genişləndirilməsidir. Bura ağıllı əkinçilik texnologiyalarının, yeni suvarma sistemlərinin tətbiqi, dronlardan istifadə edilməklə sahələrin dərmanlanması, zərərvericilərin müəyyənləşdirilməsi, eləcə də hava məlumatları üçün iqlim stansiyalarından - sensorlardan istifadə, biotexnologiya laboratoriyalarında virussuz toxumların yetişdirilməsi və s. rəqəmsal kənd təsərrüfatı elementləri daxildir.

Artıq Azərbaycanda iqlim stansiyalarından alınan məlumatların fermerlərə ötürülməsi ilə əlaqədar layihə uğurla həyata keçirilir, Quba, Qusar, Xaçmaz və Şamaxı rayonlarında 60-a yaxın kəndi əhatə edən 5 stansiya fəaliyyət göstərir. Bu gün ölkəmizdə Çin, yunan və türk texnologiyası əsasında pambıq becərilir. Bu texnologiyalar pambıqçılıqda məhsuldarlığı xeyli artırmağa imkan verir. Həmçinin yeni yüksək məhsuldar və keyfiyyətli toxumla təminat üçün strateji sahələrdən olan toxumçuluğun inkişaf etdirilməsi, məhsul istehsalçılarının sertifikatlı toxuma olan tələbatının yerli istehsal hesabına ödənilməsi əsas vəzifələrdəndir. Ölkədə yüksək keyfiyyətli məhsuldar bitki sortlarının toxumlarına olan ehtiyacı ödəmək məqsədilə institusional islahatlar aparılır, toxum istehsalı və saxlanılması üzrə ixtisaslaşmış müəssisələrin tikintisi, maşın və avadanlıqla təmin olunması üçün dövlət tərəfindən mühüm addımlar atılır. Eləcə də dünya təcrübəsi öyrənilərək Azərbaycanda tətbiq edilir, müxtəlif ölkələr və xarici şirkətlərlə əməkdaşlıq edilir.

Son vaxtlar dünyada baş verən hadisələr ərzaq təhlükəsizliyi məsələsini aktuallaşdırıb. Azərbaycan da ərzaq təhlükəsizliyinin təmin olunması, idxaldan asılılığın azaldılması əsas çağırışlardandır. Son dövrlər bu sahədə bir sıra vacib işlər görülür. Xüsusən ərzaqlıq buğdada idxaldan asılılığın azaldılması, yerli istehsalın artırılması üçün yaxın vaxtlarda Proqram hazırlanıb, Prezident İlham Əliyev iyulun 19-da ”Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında” Fərman imzalayıb. Fərmanda bildirilir ki, Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biridir. Bu məqsədlə aqrar sahəyə dövlət dəstəyi mexanizmləri təkmilləşdirilir və beynəlxalq təcrübəyə əsaslanan yeni dəstək tədbirləri həyata keçirilir.

Son dövrlər ölkədə kənd təsərrüfatının inkişafı sahəsində formalaşmış potensial, xüsusilə müasir texnologiyaların tətbiqinə əsaslanmaqla taxılçılıq təsərrüfatlarının yaradılması, həmçinin uzun illər ərzində işğal altında qalan torpaqların işğaldan azad olunması ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin daha da artırılması məqsədilə yeni hədəflərin müəyyən edilməsinə imkan verir.

Fərmanda ilkin mərhələdə pilot layihə olaraq, Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanmış müqaviləyə əsasən müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürmüş şəxslər tərəfindən istehsal olunan və Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya 2023-cü ildən başlayaraq 5 il müddətində məhsul subsidiyasının tətbiq edilməsi nəzərdə tutulur. Bütün bunlarla yanaşı, təbii ki, ölkədə kənd təsərrüfatı məhsulları istehsalında bəzi çətinliklər də qarşıya çıxır və bunlar istehsalçıları narahat edir. Çətinliklər sırasında ilk növbədə Azərbaycandan da yan keçməyən qlobal iqlim dəyişiklikləri göstərmək lazımdır. Digər tərəfdən fermerləri narahat edən ən aktual məsələlərdən biri onların yarısının əziyyət çəkdiyi su qıtlığı problemidir. Eləcə də son vaxtlar dünyada gedən proseslər fonunda gübrə qiymətlərinin bahalaşması kənd təsərrüfatı məhsulları istehsalçılarına çətinliklər yaradır. Belə ki, gübrənin bahalığı, eləcə də son zamanlar logistika sahəsində məhdudiyyətlər gübrələrin əldə olunmasını çətinləşdirir, bu da öz növbəsində məhsuldarlığın aşağı düşməsinə, maya dəyərinin artmasına səbəb olur.

Qeyd edək ki, ölkəmizdə fermerlərin qarşılaşdıqları problemlərin müəyyən edilməsi və cavab tədbirlərinin görülməsi üçün Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzi tərəfindən müasir elmi metodlarla fermerlər arasında mütəmadi sorğular keçirilir, təhlil və qiymətləndirmələr aparılır. Kənd təsərrüfatının inkişafını ləngidən amillərdən biri də kiçik torpaq sahələri ilə bağlıdır. Belə ki, kiçik torpaq sahələrində yeni texnologiyaların tətbiqi, o cümlədən müasir suvarma sistemlərinin qurulması rentabelli olmadığı üçün məhsuldarlıq da aşağı olur. Eləcə də aqrotexniki qulluq qaydalarına əməl edilməməsində bir sıra çətinliklər yaranır. Bu problemin həlli üçün də bir sıra işlər görülür. Belə ki, ölkədə ”vahid əkin” üsulu təşviq olunur və s.

Həmçinin aqrar sahədə kreditlərin hamı üçün əlçatan olmaması kiçik və orta təsərrüfat sahiblərinə maliyyə resurslarına əlçatanlıq məsələsində problemlər yaradır. Bütün bunlarla yanaşı, kənd təsərrüfatı məhsullarının ixracının artırılması, fermerlərin xarici bazarlara çıxışının asanlaşdırılması üçün təşviq mexanizmləri təkmilləşdirilir, dövlət tərəfindən məqsədyönlü və davamlı tədbirlər görülür. Bu qəbildən olan tədbirlərə infrastrukturun yenilənməsi və gücləndirilməsi, soyuducu anbarların tikintisi, logistika sahəsində islahatlar və s. daxildir. Bunun nəticəsi olaraq son illər Azərbaycan bir sıra məhsullar üzrə faraş meyvə və tərəvəz ixracatçısına çevrilib. Yeni intensiv bağların salınması ildən ilə məhsul istehsalının artması, bununla da həm yerli tələbatın yaxşılaşması, həm də ixracın artması ilə nəticələnib.

***Havar Şəfiyeva***

## İQTİSADÇI: ”Azərbaycan bu iqtisadi böhrandan ciddi şəkildə təsirlənməyəcək”

***"Bu gün dünya iqtisadiyyatında ciddi bir durğunluq mövcuddur. Bu durğunluq gələcəkdə çox yüksək bir iqtisadi böhran yarada bilər". Bu fikirləri iqtisadçı Aslan Əzimzadə bildirib.***



Onun sözlərinə görə, bunun bir sıra səbəbləri var: ”İlk səbəbi təbii ki, covid-19 pandemiyasına görə istehsalın dayanmasıdır ki, bu da nəticə etibarilə sahibkarlıq subyektlərinin fəaliyyətini ciddi şəkildə zərərə uğradıb. Digər tərəfdən isə səbəb ölkələrdə düzgün aparılmayan iqtisadi siyasətləridir. Bu amillər böhranı tətikləyən əsas istiqamətlərdəndir. Hər bir ölkə kimi Azərbaycana da bu böhranın müəyyən təsirləri olacaqdır. Amma düşünürəm ki, bu gün Azərbaycan iqtisadiyyatının dayanıqlılığı onu deməyə imkan verir ki, Azərbaycan bu iqtisadi böhrandan ciddi şəkildə təsirlənməyəcək. Lakin biz dünya iqtisadiyyatında baş verən böhran çərçivəsində neft qiymətlərində müəyyən azalmalara şahid ola bilərik. Müəyyən istiqamətlərdə o cümlədən idxal etdiyimiz məhsullarda qiymət artımı mövcud ola bilər. Bu da öz növbəsində idxal inflyasiyası ilə nəticələnə bilər. Bunun qarşısını almaq üçün təbii ki, yerli istehsalı təşviq etmək lazımdır. Əsas kapitala, emal sənayesinə investisiyaların cəlb edilməsinə nail olmaq lazımdır. Bu yalnız birbaşa xarici investisiyalar ilə deyil, daxili investisiyalar ilə də mövcud olmalıdır. Məhz sözügedən istiqamətlərdə düşünürəm ki, Azərbaycan gələcəkdə yarana biləcək böhranlara qarşı adaptiv mexanizm formalaşdıra bilər. Digər tərəfdən dünya iqtisadiyyatında baş verəcək böhran deqloballaşma meyillərini inkişaf etdirir. nu inkişaf nəticəsində isə regionlaşmanın ön plana çıxdığını görürük ki, bu da növbəti illərdə yeni regionlar iqtisadi blokların yaranmasından xəbər verə bilər”.

***Abutel İlhamqızı***

# Dəyişən Azərbaycan, dəyişməyən təfəkkür...

***Azərbaycan xalqı artıq 1 il 8 aydır ki, bir qərinəyədək dövrdə erməni işğalı altında qalan əzəli torpaqlarını geri almaqla düşmən üzərində böyük Zəfər çalmış, bununla ölkəmizin ərazi bütövlüyü təmin edilmiş, tarixi ədalət bərpa olunmuşdur. 2020-ci ilin 27 sentyabrında başlayan İkinci Vətən Müharibəsi noyabrın 10-da qələbə ilə bitmiş, bu qələbə 30 ildə qaçqın, köçkün, didərgin statusu ilə yaşamaq məcburiyyətində olan minlərlə insanın ata-baba yurduna hicranını vüsalla nöqtələmişdir. Müharibə bitəndən dərhal sonra düşmənin daşı daş üstündə qoymadığı rayonlarımızda yenidənqurma, bərpa işlərinə başlanılmışdır. Bəli, dərhal başlanılmışdır ki, Böyük Qayıdış da tez baş tutsun, həmvətənlərimiz evlərinə qayıtsınlar.***



Böyük və möhtəşəm Qayıdışa başladıq

Bu günlər xalq 2020-ci ildə Zəfər qazandığımız günlərdə olduğu kimi, yenə də eyni sevinc içərisində, bayram təntənəsindədir. Çünki qədim torpaqlarımıza artıq Böyük Qayıdış başlanıb. Bu Qayıdış ilk olaraq Zəngilanın Ağalı kəndində "ağıllı kənd" layihəsinin uğurla başa çatmasından, yəni bu kənddə hərtərəfli müasir şərait yaradıldıqdan sonra sakinlərin dönüşü ilə baş tutub.

Bu mənzərələri seyr etdikcə qəlbimiz qürur hissi ilə dolur. Yenicə müharibədən çıxmış bir ölkədə azad torpaqların bu qədər sürətlə abadlaşdırılması, böyük infrastrukturların, layihələrin həyata keçirilməsi dövlətimizin iqtisadi gücünün göstəricisidir. Azad torpaqlarda yeni hava limanlarının, elektrik stansiyalarının, su anbarlarının, sosial obyektlərin tikintisi, yolların çəkilməsi, körpülərin salınması miqyasına görə asan olmadığı kimi, bu qədər kiçik zaman kəsiyinə sığdırılması da həm əzəli düşmənimiz erməniyə, həm də içimizdən olan düşmənlərimizə göz dağıdır. O düşmənlərimizə ki, zaman ötdü, Azərbaycan dəyişdi, lakin onlar eyni təfəkkürdə qalmaqla hələ də 30 ilin əvvəlindədirlər. Çünki düşmən düşmənliyində qalır, dəyişməyən məqsədi ilə məqam axtarır.

### Biz içimizdən olan dəyişməz təfəkkürlülərə 30 illik şahidlərik

Yaxşı ki, bu 30 il ərzində baş verən hadisələrin canlı şahidləri olmuşuq. Yoxsa geritəfəkkürlülər bunları da utanmadan danardılar. Həmin hadisələri torpaqlarımızın hər birinin azad olunması müjdəsini Prezident, Ali Baş Komandan cənab İlham Əliyevdən eşitdiyimizdə də xatırladıq. Bu gün isə azad torpaqlarda abadlıq işləri, Qayıdış fonunda 30 ilin əvvəlində olanları xatırlamamaq mümkün deyil. Mən bir jurnalist kimi deyil, bir vətəndaş kimi o zaman baş verənləri bu gün olubmuş kimi xatırlayıram. Çünki hər birinin şahidi olmuşam. Çox təəssüf ki, taleyimizə xalqa düşmən kəsilənlərin bu ölkəyə rəhbərliyi altında yaşamaq da yazılıbmış.

Ozamankı AXC-Müsavat cütlüyü üçün, sözün həqiqi mənasında, insan amili ən dəyərsiz bir anlamda idi. Nəyin bahasına olursa-olsun hakimiyyəti əllərində saxlamaq məqsədi güdən bu qruplaşmanın xalqın başına açmadığı oyun qalmadı. Səriştəsiz rəhbərlik ölkənin iqtisadiyyatını çökdürmüş, insanlar 90-cı illərdə çətin günlərlə üz-üzə qalmışdılar. Ölkədə ərzaq qıtlığı yaranmışdı. Özbaşınalığın son həddi nəticəsində istehsal müəssisələri fəaliyyətlərini dayandırmış, minlərlə insan iş yerini itirmişdi. Ölkədə çörək növbələri yaranmışdı. İnsanlar sübh çağından mağazaların qarşısında çörək növbəsinə dayanırdılar. Əmək haqqlarının olduqca aşağı olması yaşayış səviyyəsini minimuma endirmişdi.








Bütün bunlarla yanaşı isə sərhəd rayon və kəndlərimiz hər gün ermənilər tərəfindən atəşə tutulur, günahsız insanlar həyatlarını itirirdi. Elə bu ərəfələrdə də Birinci Vətən Müharibəsi başlamışdı. Biz bu müharibədə düşmən qarşısına əliyalın vəziyyətdə çıxmışdıq. Çünki Ordu yox kimi idi. Bu səbəbdən də torpaqlarımızı müdafiə edə bilmirdik, onlar bir-birinin ardınca işğal olunurdu. Sonralar məlum oldu ki, əslində vəziyyət tamamilə başqa imiş. Hakimiyyətdə qalmaları üçün AXC-Müsavat cütlüyü torpaqlarımızı satmış, müharibə iştirakçıları isə bundan xəbərsiz şəkildə sonadək döyüşmüş, lakin heç bur nəticə əldə edə bilməmişlər. Həmin müharibədə minlərlə şəhidimiz, minlərlə qazimiz həmin rəhbərlərin qurbanı oldular. Hakimiyyətdə qalmaq üçün sovet imperiyasının son qalıqlarına baş əyməklə, onların planlarını həyata keçirməklə onlar öz xalqının övladlarını qırğına verdilər. 20 Yanvar hadisələrində, Xocalı faciəsində olduğu kimi. Təəssüflər olsun ki, onların gözlərini vəzifə kürsüsü sevdası o qədər pərdələmişdi ki, bu ictimai formasiyanın laxladığının belə fərqində deyildilər. Zənn edirdilər ki, imperiya dayandığı ilğımın başından yenidən geri dönəcək, onlara satdıqları torpaqlar qarşılığında vəzifədə qalmağa havadarlıq edəcəkdir. Lakin çox təəssüf...

### Xalq bir dəfə aldadıla bilər

AXC-Müsavat cütlüyü, sözün həqiqi mənasında, bu xalqı aldatdı. 90-cı illərdə onlar insanları işgüclərini atıb küçələrdə mitinqlərə toplaşmağa vadar edirdilər. İnsanlar da məcburən bu mitinqlərdə iştirak edirdilər, çünki başqa əlacları yox idi. Bu ölkədəki qarışıq vəziyyətdən çıxış yolu axtarırdılar. Həmin adıçəkilən cütlüyün əsasən ziyalı olmayan təbəqəsinin nümayəndələri isə insanlara boş vədlər verir, onları firavan sabahın gözləndiyini "inamla" söyləyirdilər.

Faktiki olaraq əldən gedən torpaqlar, ölkənin iqtisadi tənəzzülü, aclıq və səfalətin baş alıb getdiyi bir zaman kəsiyində insanlara xoş gələcəkdən vədlər vermək isə cəfəngiyyatdan, vaxt qazanmaqdan başqa bir şey deyildi. Bunu xalqımızın ziyalı təbəqəsi gördü. Gördü ki, bunların artıq aldıqları nəfəs də yalandır. Belə bir vaxtda nə üçün ölkə ziyalıları yığışıb ümummilli lider Heydər Əliyevə müraciət etdilər. Hansı ki, həmin vaxt ulu öndər Naxçıvanda yaşayırdı. Ona görə bu yolu seçdilər ki, açıq şəkildə gördülər, ölkə əldən gedir, yenidən əsarətə düşmək anındadır. Həmin ziyalılar ulu öndərə müraciət edərək onu Bakıya- hakimiyyətə dəvət etmələri ilə bütövlükdə Azərbaycanın xilasına, var olmasına təminat yaratdılar. Aldadıldığını anlayan xalq da həmin ziyalıların arxasınca getdi, ulu öndərə böyük ümid bəslədilər. Beləliklə də Azərbaycanın xilası üçün ilk addım atılmış oldu. Böyük Heydər Əliyev Bakıya gəldi və bugünkü Azərbaycanın təməli həmin illərdə qoyuldu.

### Nimdaş təfəkkürlər dəyişilməz olaraq qalmaqdadır

Bəli, 30 ilin əvvəlində AXC-Müsavat təfəkkürü necə idisə, bu gün də olduğu kimi qalmaqdadır. Biz düşünürdük ki, satdıqları torpaqlar 30 ildən sonra alınan zaman onlar təfəkkürlərində bir dəyişiklik edəcəklər. Ən azından onların satdıqlarının başqaları tərəfindən alındığı üçün, lakin çox təəssüf.

İkinci Qarabağ Müharibəsində AXC-Müsavat cütlüyündə bir dəyişiklik görə bilmədik. Sanki belə də olmalı, onlar satmalı, biz almalı idik. Hansı ki, düşünürdük ki, bütün yersiz iddialarını bir kənara qoyub, hələ əllərinə də silah alıb cəbhəyə yollanacaqlar. Bir utanc yaşayacaqlar ki, heç olmasa satdığımızın geri alınmasına dəstək olaq. Lakin belə də olmadı. Xalq Zəfər qazandıqca bunların nimdaş təfəkkürlərinə təsiri belə olmadı. Onlardan gözügötürməzlikdən başqa heç nə görmədik. Təbii ki, bu xalqa məxsus olmadıqları üçün belə idi. Çünki qanı qanımızdan, canı canımızdan olanların hamısı sevinirdilər.

Bütün dünyanın zəfərimizə heyrət etdiyi, ölkəmizin başçısının bu müharibə dövründə xarici televiziya kanallarına müsahibələrini, xalqa müraciətlərini təqdir etdikləri, böyük strateji planla torpaqlarımızı azad etdiyimizdən danışdığı bir vaxtda bütün bunlara tərs münasibət bu qruplaşmanın xalqın xoş gününə kədərləndiklərini göstərdi.

Pandemiyanın ötən 3 ilə yaxın dövrdə dünya iqtisadiyyatına böyük zərbə endirdiyi bir vaxtda ölkə iqtisadiyyatının gündən-günə inkişaf etməsi, əmək haqlarının dəfələrlə artırılması, dövlət-xalq birliyinin ən yüksək səviyyədə olması, şəhid və qazi ailələrinə göstərilən diqqət və qayğı bu təfəkkürlülərin gözlərinə bıçaqdır. Bu xalqın nə sevinci, nə də kədəri bu təfəkkürləri qurcalamır. Çünki onlar hələ də hakimiyyət arzuları cəmləşən nimdaş təfəkkürlərdir.

### Artıq bu xalq 30 il əvvəlki xalq deyil

30 il əvvəlki təfəkkürlə aksiyalar keçirənlərə üz tutub demək istəyirik ki, bu xalq 30 il əvvəlki xalq deyil. Bu xalqın Zəfərli Azərbaycan kimi ölkəsi var. Arxasında duran, şərəf, namus məsələsini həll edən, bütün təbəqələrdən olan insanlara, bütün sahələrdə çalışan zəhmətkeşlərə qayğı ilə yanaşan ölkə rəhbəri var. Bu xalq artıq kimin arxasınca getməyi özü çox yaxşı müəyyən edir. Boş-boş danışıqları artıq bizim qulaqlarımız eşitmir. Çünki o qulaqlarda sizlərin satdığınız torpaqları alanların adı səslənir, bir də Zəfər nəğməsi...

Biz Qarabağa qayıtmağa hazırlaşırıq. Orada böyük quruculuq işləri həyata keçirilir. Şuşa, Laçın, Kəlbəcər, Cəbrayıl, Füzulu və digər azad olunmuş torpaqlarımızda tədbirlər keçiririk, onların sizlər tərəfindən oğurlanmış ruhunu özlərinə qaytarırıq. Dünyanı dəvət edirik torpaqlarımıza. Satdığınız torpaqları erməni adlı qəbilənin nə günə saldığını göstəririk. Fotoları, videoları dünyaya yayıb həqiqətləri faş edirik.

Ərazi bütövlüyü təmin olunmuş ölkəmizdə firavan, dinclik şəraitində yaşayırıq. Və kimin arxasınca getməyi də artıq müəyyən etmişik. Biz minlərlə şəhidi, qazisi olan xalqıq. Torpaqlarımız vaxtında satılmasaydı, bu qədər itkilərimiz də olmazdı. Minlərlə ana qəlbi dağlanmazdı, ata beli bükülü qalmazdı, minlərlə uşaq atasız, minlərlə qadın ərsiz qalmazdı. Bu Azərbaycan 30 il əvvəlki Azərbaycan deyil. Lakin 30 il əvvəlki təfəkkürdə olanlar var. O təfəkkürlər isə indi boş xülyadan başqa bir şey deyil. Bunu özləri bizdən də yaxşı bilirlər. Lakin könül bulandırmaq məsələsi...

***Mətanət MƏMMƏDOVA***

*Ermənistan hələ də hansı istiqamət götürəcəyini təyin etməyən bir gəmiyə bənzəyir. Bu ölkədə nə normal ideologiya, nə də mövcud çətinliklərini arada qaldıracağına, eləcə də gələcəyini necə quracağına dair heç bir konsepsiya yoxdur. Dövlət qurumları belə bu ölkədə normal fəaliyyət göstərə bilmir. Ermənistan bir dövlət olaraq kimin dost, kimin düşmən olduğunu təyin edə bilmədiyi kimi, kiminlə hansı formada münasibətlər qurmalı olduğunu da müəyyənləşdirə bilməyib, amma bu ölkə kimlərinsə ambisiyalarının, oyunlarının qurbanına çevrilərək yaman zəhərlənib, hansıki bu zəhərdən təmizlənmək üçün antidotlara, yəni zəhər əleyhinə zərdaba ehtiyac duyulur.*




# Erməni cəmiyyətində ANTİDOTLARA EHTİYAC DUYULUR

Artıq ordusu, yaxud silahlı qüvvələri barədə yaradılan mif tamamilə darmadağın edilibsə, deməli, sərsəm revanşist fikirlər, hansısa yeni absurd iddialar çox gülünc səslənir. Bu ölkənin ümumiyyətlə təhlükəsizlik anlayışı barədə sanki təsəvvürü belə yoxdur. Çox qısa zaman ərzində, 44 gün müddətində belə müharibəyə, Azərbaycanın keçirdiyi hərbi əməliyyatlara davam gətirməyib imza atdıqları məğlubiyyət sənədindən sonra erməni cəmiyyətində guya yenidən vəziyyətin, şərtlərin dəyişdirilməsinin reallaşdırılacağı imkanları barədə qeyri-normal ideyalar ortaya atılıb. Göründə ki, 44 günlük müharibənin məntiqi nəticəsi olan məğlubiyyətini hələ izah edə bilməyən, rüsvayçı məğlubiyyətini örtbasdır edə bilməyən bir ölkədə kimlərsə dilemma ilə, iddialarla çıxış etmək niyyətindədir, dərhal anlaşılır ki, erməni cəmiyyətini yenə də zəhərləyirlər. Təcrübə göstərir və təsdiq edir ki, uzun müddət zəhərlənmiş sözügedən bu cəmiyyət zəhərdən təmizlənmədiyi üçün faciələrlə üzləşməli olub və 44 günlük müharibədə səbəbsiz yerə qırğına verilən, həyatından məhrum olanların yaxınlarının hazırki ağrı-acıları, haqqında qeyd olunan faciələr barədə ən sadə nümunədir. Belə faciələrə erməni cəmiyyəti dəfələrlə məhz zəhərlənərək sürüklənib, acısını da çəkib və hələ də çəkməkdədir.

"Demək olar ki, heç bir institut olmadığı halda, Ermənistanda hansı institusionallıqdan söhbət gedə bilər? Yəni, institutların məhv edildiyi bir dövlətdə müxalifət necə institusional işlə məşğul ola bilər? Bu, bir təlxəklik, göstərilən şou və sanki sirkdir. Diplomatik xidmət, xüsusi xidmət orqanları, müdafiə institutları və dövlət idarəetmə sistemi bərbad vəziyyətdədir", deyən Ermənistanın Respublika Partiyasının sədr müavini Armen Aşotyan haqlıdır. Ona görə haqlıdır ki, dövlət məhz bu prioritetləri həyata keçirmək üçündür. "Dövlət xalqın daimiliyini, əbədiliyini, xalqın təhlükəsizliyini təmin etməyə borcludur. Dövlət xalqın təhlükəsizliyini təmin etməlidir. Əgər dövlət təmin edə bilmirsə, bu, sadəcə olaraq, həmin xalq üçün böyük bir faciədir", deyən Serj Sarkisyanın isə sözlərində qeyri-adi bir şey yoxdur. Əksinə, kimin deməsindən asılı olmayaraq, sadalananlar bir həqiqətdir, amma bu həqiqətə Ermənistanda rast gəlinə bilməz və Sarkisyanın da məqsədi doğru yolu göstərmək deyil, erməni xalqını bir də zəhərləyib, öz çirkin niyyətinə çatmaq, hakimiyyəti yenidən ələ keçirməkdir. Məhz elə bu zəhərdən də erməni cəmiyyətini təmizləmək üçün zəhər əleyhinə zərdab, antidotlar lazımdır.

Heç bir erməni siyasətçisi, heç bir eks-prezident ölkənin başına gələnlərdə, rastlaşdıqları faciədə özünü günahkar hesab etmək istəmir. Bu gün Paşinyan hakimiyyətini günahlandıran, qızıldan dağlar vəd edən Koçaryanların, Sarkisyanların da hakimiyyət illəri yaddaşlardan silinən deyil və onların hakimiyyət illərində erməni xalqına heç də bal paylanılmayıb. Yaxud, Paşinyanı məğlubiyyətdə günahlandıranlar, onu düzgün yol seçməməkdə ittiham edənlər axı öz hakimiyyətləri illərində özləri də doğru yolu seçməmişdilər. İndi barəsində danışılan 44 günlük müharibənin məğlubiyyət acısında Sarkisyanların da, Koçaryanların da payı kifayət qədərdir. Elə isə onlar hansı üzlə, hansı haqla və hansı əsasla yenidən erməni xalqını qızışdırıb qırğına vermək istəyirlər? Əgər onların hansısa konsepsiyası belə yoxdursa, dediklərinə özləri də inanmırlarsa, uydurmalarla xalqı qızışdırırlarsa, deməli erməni xalqını yenidən zəhərləyirlər və bu zəhər əleyhinə antidot axtarmalıdır biçarə erməni xalqı.

Deyək ki, erməni xalqı haqqında qeyd olunan zəhərdən öz cəmiyyətini guya təmizləmək üçün 2018-ci ilin yazında hərəkətə keçdi və öncəki rejim süpürülüb atıldı, hansıki həmin o süpürülmüşlər özlərini daha vacib hesab edərək indi ortaya atılıblar və yenə də xalqı zəhərləmək niyyətindədirlər. Heç o 2018-ci il hadisələrindən istifadə edərək hakimiyyətə gələn Nikol Paşinyan da xalqına bal paylamadı, baxmayaraq ki, bunu vəd edərək gəlmişdi. Əksinə, o səriştəsiz olduğunu ifşa etdi, düşünülməmiş addımları ilə gülüş hədəfinə çevrildi, həll edilməsi illər boyu gözlənilən məsələlərə dırnaqarası yanaşdı, hətta bir qədər də irəli gedərək, saymazlıq etdi və danışıqlar yolu ilə həll ediləcəyi nəzərdə tutulan münaqişəni hərbi əməliyyatlar, müharibə müstəvisinə daşıdı. Nəticədə də erməni xalqı çox böyük itgilər verməli oldu, hansıki acısını hələ də yaşamaqdadır və deməli küçə nümayişçisi özü də təmsil etdiyi xalqı, cəmiyyəti zəhərləmişdi. Paşinyan da öz lovğalığı, diletantlığı və miqyasından böyük danışmağı, populizmi ilə zəhərləmişdi erməni cəmiyyətini və həmin zəhər böyük itgilərlə o xalqın, o cəmiyyətin yaddaşına yazıldı.

Doğrudur, məxməri inqilab deyilən küçə nümayişləri, Nikolun hakimiyyəti ələ keçirməsi Serj Sarkisyan rejiminə qarşı antidot oldu, ancaq bu antidotun da çoxlu yan təsirləri, zərərli təsirləri, özünün zəhərli olduğu ortaya çıxdı. Ortaya çıxdı ki, Ermənistanda hakimiyyəti ələ keçirən, yaxud keçirmək istəyən mütləq cəmiyyəti zəhərləmək metodundan, üsulundan istifadə edir. Bu zaman isə yenə torpaq iddiaları ortaya atılır, köhnə xülyalar bir də gündəmə gətirilir, daxili auditoriyaya hesablanan vədlər verilir, hazırki revanşist fikirlərin nümunəsində cəmiyyət qızışdırılır və qırğınlara sürüklənir. Bir növ, həmin o iddialar, yaradılan miflər, verilən vədlər erməni cəmiyyəti üçün zəhərə çevrilir və həmin cəmiyyəti durmadan məhv edir. Buradan da belə nəticə hasil olur ki, deməli, ilk növbədə erməni xalqına, cəmiyyətinə dövlət orqanizminin, Ermənistan ictimaiyyətinin hüceyrələrini zəhərləməkdə davam edən zəhərə qarşı antidot lazımdır. Sözsüz ki, bu ölkə həmin o zəhərdən mümkün qədər tez təmizlənsə, daha yaxşı olar, əks halda faciələri biri-birini əvəz etməli olacaq və bütövlükdə həmin cəmiyyəti tamamilə məhv edəcək.

***İnam Hacıyev***

## Mediada fəaliyyət göstərən QHT-lərlə görüş keçirilib



22 iyul - Milli mətbuat və Jurnalistika Günü ərəfəsində Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyində mediada fəaliyyət göstərən QHT-lər ilə görüş keçirilib. SİA-nın verdiyi məlumata görə, son günlər media subyektləri tərəfindən intihar halları ilə bağlı xəbərlərin geniş yayılması məqsədilə təşkil edilən görüşdə Müşahidə Şurasının üzvü İsrayıl İsgəndərov, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktor müavini Emil Çaparlı, mediada fəaliyyət göstərən QHT-lər iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Agentliyin icraçı direktor müavini Emil Çaparlı 22 iyul - Milli mətbuat və Jurnalistika Günü münasibətilə mediada fəaliyyət göstərən QHT-ləri təbrik edib və tədbirin gündəliyi haqqında məlumat verib. Müşahidə Şurasının üzvü İsrayıl İsgəndərov çıxış edərək bildirib ki, son zamanlar bir sıra media subyektləri tərəfindən intihar halları ilə bağlı xəbərlərin geniş tirajlanması, xüsusən də yetkinlik yaşına çatmayan şəxslərin özünə qəsd etməsi ilə əlaqədar mövzuları işləyərkən jurnalist peşəkarlığı baxımından yol verilən qüsurlar cəmiyyətdə narahatlıq yaratmaqla, haqlı olaraq ictimai narazılığa səbəb olur. Unutmaq lazım deyil ki, peşəkar media ictimai əhəmiyyətli informasiyalarla cəmiyyəti məlumatlandırmaq kimi şərəfli və məsuliyyətli missiyanı yerinə yetirir.

Daha sonra çıxış edən mediada fəaliyyət göstərən QHT nümayəndələri keçirilən mövzunun aktuallığını xüsusi qeyd edərək fikirlərini bölüşüblər. QHT-lər bildiriblər ki, hadisələr bizim hər birimizi üzərək narahat edir. Ailədaxili münasibətlər, uşaq və yeniyetmələrin vəziyyəti və rastlaşdıqları problemlər dövlətin diqqəti altındadır. Bizim də borcumuz ondan ibarətdir ki, bütün aidiyyəti dövlət qurumları, cəmiyyət və media, o cümlədən, ailələr bu məsələni diqqətdə saxlamalıdır". Çıxışlardan sonra mövzu qarşılıqlı diskusiya əsasında davam edib. Tədbirin yekunu olaraq mövzu ilə bağlı bəyanət səsləndirilərək, qəbul edilib.

## EKSPERT: "Belə hadisələri işıqlandırmamaq daha doğru olar"

"Ümumiyyətlə intiharlarla bağlı xəbərlərin verilməsinin tərəfdarı deyiləm. İntihar fərdi hadisədir və bir insanın mənəvi-psixoloji vəziyyətdən çıxa bilməməsinin nəticəsidir". Bu fikirləri S?A-ya açıqlamasında media eksperti Azər Həsrət bildirib.



Onun sözlərinə görə, yəni öz canına qıyır və bununla da öz yaxınlarını, sevdiklərini, ailəsini gözüyaşlı qoyur: "Bu böyük bir faciədir. Amma bütövlükdə götürdükdə belə hadisələri ümumiyyətlə işıqlandırmamaq daha doğru olar. Çünki pis vərdişlər yoluxucu olur. Belə nümunələr adiləşir. Xüsusən də psixologiyası zəif olan insanlar adiləşmiş olan bu hallara meyillənirlər. Mətbuat bunu işıqlandırdıqca bu halların sayı artır. Düşünürəm ki, media bu tip xəbərlərdən yayınmalıdır. Əlbəttə bəzən bu cür hadisələr baş verir. İctimai çəkisi yüksək olan insan dözə bilməyib intihar edir. Yəni bu cəmiyyəti narahat edən, maraqlandıran məsələdir. Amma bəzən ailəsində problem olduğu zaman və ya kiminləsə sözü tərs gəldiyi üçün əsəbindən intihar edən insanlarda var. Yəni bu kimi intiharların mətbuat tərəfindən yayımlanması düzgün deyil. Mümkün qədər bu cür xəbərlərin geniş yayılmasının qarşısını almalıyıq. Jurnalistlərin vəzifəsi odur ki, belə xəbərlərin mümkün qədər yayılmasının qarşısı alsınlar. Qeyd etdiyim kimi pis vərdişlər tez yoluxan xarakterdədir. Belə xəbərlərin yayılması yetişməkdə olan nəsilə öz mənfi təsirlərini göstərir".

***Abutel İlhamqızı***

# Müalicə turizmi: sağlamlıq və istirahət məkanlarımız

*İlham Əliyev: "Azərbaycan kimi belə gözəl yerlərə, təbii sərvətlərə malik olan bir ölkə mütləq turizmi inkişaf etdirməlidir"*





***Ölkə başçısının məqsədyönlü və balanslı xarici siyasəti, uğurlu daxili siyasəti nəticəsində Azərbaycan bu gün dünya üzrə ən təhlükəsiz və sabit ölkələr sırasındadır. Bu amil isə müasir dünyada turistlərin səyahət seçimi etməsində ən əsas göstəricidir. Əlbəttə ki, turizm sahəsində reallaşan layihələr, görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, idman turizmi, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib.***

Bu gün Azərbaycanda ilin bütün fəsillərində istirahət üçün imkanlar mövcuddur. Belə ki, ölkəmizdə turizmin yay turizmi ilə yanaşı, qış turizminin də yaradılması əlbəttə ki, ilin bütün fəsillərində istirahət üçün zəmin yaradıb. Ölkəmizin füsunkar gözəlliyi, potensialı da turizm üçün əlverişli şərait yaradıb. Çoxsaylı tarixi abidələr, düzənlikdən yüksək dağ zonasına qədər bir-birini əvəzləyən gözəl təbiət mənzərələri, zəngin meşə örtüyü, əlverişli iqlim, gur dağ çayları, mineral və qeyri-mineral bulaqlar, barlı-bəhərli meyvə bağları, atla gəzinti, meşə gəzintisi, balıq ovu, göldə qayıqla gəzinti və s. turizmin inkişafı üçün mühüm amillər sırasında yer alır. Bu və ya digər amilləri qeyd edərkən adət-ənənələrimiz, milli mətbəximiz də diqqətə çəkməliyik.

Dövlətin turizm sahəsinə göstərdiyi diqqət və qayğısının nəticəsidir ki, Azərbaycan dünyada artıq turizm məkanı kimi tanınır. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə də turizmin daha da inkişaf etdirilməsi əksini tapıb. Dövlətin siyasəti və ünvanlı layihələr də nəticəsini verir. Təbii ki, ölkəmizdə təhlükəsizliyin, əmin-amanlığın hökm sürməsi, beynəlxalq tədbirlərin təşkili, qlobal forumlar, humanitar forumlar, mədəniyyətlərarası dialoq forumları, iqtisadi forumlar, idman yarışları və s. turistlərin ölkəmizə axınına səbəb olub.

### NAFTALAN ŞƏHƏRİ TURİZM SEKTORUNDA ÖN SIRALARA YÜKSƏLDİ

Ölkəmizdə sağlamlıq turizmin inkişafı üçün potensial böyükdür. Burada turistlər yüksəkkeyfiyyətli tibbi müalicə əldə edə bilirlər. Min bir dərdin dərmanı olan Azərbaycanın müxtəlif bölgələrində yerləşən istisu mənbələrinin, Naxçıvandakı Düzdağın, Şabrandakı Qalaaltının müalicəvi imkanlarından insanlar yararlanırlar.

Sağlamlıq turizmindən danışarkən Azərbaycanın şimal-qərbində yerləşən Naftalan şəhərinin də adını qeyd etməliyik. Xam neftdən müalicəvi istifadəyə görə dünyada məşhur olan Naftalan neftindən, əzələ, dəri, sümük, həmçinin ginekoloji və nevroloji xəstəliklərin müalicəsində də istifadə olunur. Ötən əsrin 80-ci illərində Naftalana müalicə üçün hər il 70 min turist gəlirdi. Lakin sonradan Ermənistanın Azərbaycanın 20 faiz torpaqlarını işğalı nəticəsində öz el-obalarından didərgin düşən insanların bir qismi şəhərdəki sanatoriyalarda məskunlaşmışdı. Bu gün Naftalanın kurort şəhəri kimi nüfuzunun bərpası üçün böyük işlər görülüb və bu, davam etməkdədir. Vurğulamaq yerinə düşər ki, 1970-1990-cı illər Naftalan şəhərində dönüş baş verib. Ümummilli Lider Heydər Əliyev şəhərin inkişafı və böyük şöhrət qazanması üçün misilsiz xidmətlər göstərib. Belə ki, o illərdə şəhərdə müxtəlif sosial və iqtisadi təyinatlı müəssisələr tikilib istifadəyə verilib. Sonrakı dövrdə isə Prezident İlham Əliyevin şəxsi təşəbbüsü və həyata keçirilən proqramlar sayəsində Naftalan şəhəri turizm sektorunda ön sıralara yüksəldi. Şəhərin əsasını sanatoriya-kurort infrastrukturu təşkil edir. Son illər müasir əsaslarla yeni kurortların yaradılması ilə şəhərin turizm potensialı genişləndirilir, sahibkarlığın inkişafı üçün münbit şərait formalaşır. "Naftalan Mərkəzi sanatoriyası" da belə layihələrdən biridir. Mərkəz bir çox terapiya sahələrini özündə birləşdirməklə, müxtəlif xəstəliklərin müalicəsi üçün sağlamlıq-profilaktik müəssisəyə çevrilir. Yeni müəssisədə 50 nəfərə yaxın personalın çalışması şəhər əhalisinin məşğulluğunun təmin olunmasına mühüm töhfədir. Əlbəttə ki, Azərbaycanda turizmin inkişafı respublikamıza xarici vətəndaşların cəlb edilməsi ilə yanaşı, həm də bölgələrdə əmək məşğulluğunun artması, yeni iş yerlərinin açılması baxımından da sərfəlidir. Bu isə dövlət siyasətinin prioritet məsələlərindən biridir. Naftalanda fəaliyyət göstərən kurort-sanatoriya müəssisələrində 1000 nəfərdən çox şəxs işlə təmin olunub ki, bu da şəhərdə işsizliyin aradan qaldırılmasında əhəmiyyətli rol oynayır. Hazırda fəaliyyət göstərən müəssisələr gün ərzində 3000-ə yaxın turist qəbul etmək imkanına malikdir. Son illərdə Naftalan şəhərində müasir tələblərə cavab verən 10-dan çox istirahət və sağlamlıq mərkəzi istifadəyə verilib. Hazırda Naftalanda müxtəlif sanatoriyalar, SPA mərkəzləri və otellər tikilir və bu şəhər öz əvvəlki şöhrətini qaytarır. Bu da gələcəkdə yeni iş yerlərinin açılması və daha çox turist qarşılanmasına səbəbdir.

Vurğulayaq ki, müalicə müəssisələrinə gələn qonaqların sayında ən yüksək göstərici 2019-cu ildə qeydə alınıb, həmin ildə 60 ölkədən 12000-dən çox, ümumilikdə isə 40000-ə yaxın turist gəlib. 2020-2021-ci illərdə koronavirus pandemiyası turizm sənayesinə də təsir etdiyindən rəqəmlərdə azalma müşahidə olunub. Lakin bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə Naftalanın turizm sektorunda yenidən canlanma hiss edilir. Belə ki, son bir ayda sanatoriyalara 2000-ə yaxın turist gəlib. Beləliklə, şəhər infrastrukturunun yenilənməsi, yeni sağlamlıq-istirahət mərkəzlərinin istifadəyə verilməsi yerli və xarici turistlərin Naftalana olan marağını postpandemiya dövründə daha da artıracaq.



### QALAALTI DÜNYA SƏVİYYƏLİ BEYNƏLXALQ MÜALİCƏ VƏ İSTİRAHƏT KOMPLEKSİDİR

Sağlamlıq turizmindən danışarkən Qalaaltı mineral suyunu da qeyd etməliyik. Qida qəbulundan sonra, eləcə də müxtəlif xəstəliklərin müalicəsi zamanı və digər məqsədlər üçün qəbul edilən təbii, müalicəvi mineral süfrə suyu olan Qalaaltı mineral suyu müalicəvi xüsusiyyətlərə malikdir. Mənbələrdə göstərilir ki, onun müalicəvi effekti haqqında ədəbiyyatda olan ilk xatırlamalar 1578-ci illərə aiddir. Alimlərin apardıqları tədqiqatlar göstərmişdir ki, "Qalaaltı" suyu tərkibi etibarı ilə Zakarpatiyada (Truskavets) çıxan mədən suyu "Naftusiya"nın eynidir. "Qalaaltı" mədən suyu tapılana qədər Truskavetsin "Naftusiya" suyu SSRİ-də yeganə hesab olunurdu.

Mədən suyu Şabran rayonunun 20 kilometrliyində Qalaaltı adlanan kəndin üst tərəfində, dağətəyi meşədə 1969-cu ildə tapılmışdır. Meşədə həmin suyun 7 mənbəyi müəyyən edilmişdir. Bunlar da böyük ehtiyata malikdir. Böyük Qafqazın ətəklərində, dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən "Qalaaltı" sanatoriyası 1976-cı ildən fəaliyyət göstərir. Sanatoriyada müalicə Qalaaltı kəndi ərazisindən çıxan təbii sularla aparılır. Yerlilər müalicə əhəmiyyətli bu suya "Naftsu", yəni neftli su deyirlər. "Naftsu" kəskin qoxusu və dadı ilə seçilir. O həm öz tərkibi ilə həm də insan orqanizminə olan fizioloji təsirinə görə orginaldır. O orqanizmdə maddələr mübadiləsini normallaşdırır, qan və sidiyə qələviləşdirici təsir göstərir, sidik turşusunun yaranmasını azaldır və onun orqanizmdən çıxarılmasına köməklik göstərir, mədə turşuluğunu azaldır, hüceyrə membranalarının keçiriciliyini azaldır, qanaxmanı azaldır, əksiltihabi təsir göstərir, diurezi artırır,



orqanizmdə olan artıq mayəni çıxardır.

Ölkəmizdə turizmin inkişafı üçün əlverişli mühitin yaradılmasının məntiqi nəticəsi olaraq, Azərbaycanın dilbər guşələrindən biri sayılan Şabran rayonunda "Qalaaltı Hotel & SPA" müasir müalicə-istirahət kompleksinin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən yeni kompleks məşhur "Qalaaltı" kurortunun bazasında inşa edilib. Kompleks Azərbaycanın qədim tarixi-mədəniyyət abidələrindən olan Çıraqqalanın yaxınlığında, sıldırım qayanın altında yerləşir. Belə bir sağlamlıq mərkəzinə üz tutan turistlər istirahətlə yanaşı, müalicə də olunurlar.

Əlbəttə ki, müasir dünyada turizm iqtisadiyyatın əsas inkişaf və gəlir istiqamətlərindən biri kimi dəyərləndirilir. Turizminin inkişafına dövlət tərəfindən ayrılan diqqət və qayğı bu sahəni iqtisadiyyatının aparıcı sahəsinə çevirib. Belə ki, rəqabətqabiliyyətli inkişaf üçün iqtisadiyyatın müxtəlif sahələrində aparılan iqtisadi islahatlar turizm sahəsinin inkişafına töhfəsini verir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Hər bir ölkə, xüsusilə Azərbaycan kimi belə gözəl yerlərə, təbii sərvətlərə malik olan bir ölkə mütləq turizmi inkişaf etdirməlidir. Çünki bu, daimi gəlir mənbəyidir. Təbii sərvətlər, neft, qaz - bunlar tükənən sərvətlərdir. Ancaq ölkəmizin dayanıqlı inkişafı üçün daim gəlir gətirən sahələr mütləq inkişaf etməlidir. Onların içərisində turizm xüsusi yer tutur."

***Zümrüd BAYRAMOVA***

# MİQ imtahanları ilə bağlı suallar nə vaxt cavablandırılacaq?

ARAŞDIRMA

***Müəllimlərin işə qəbulu imtahanlarında iştirak etmiş bu şəxslər imtahan suallarının məzmunundan tutmuş, imtahanın müddətinə qədər - bir çox məsələdən şikayətçidirlər. Baxmayaraq ki, təhsil naziri Emin Əmrullayev "Facebook" səhifəsindən müəllimlərin işə qəbulu (MİQ) imtahanı iştirakçılarına müraciət etmiş və müvafiq qərarlar qəbul ediləcəyini bildirmişdi, amma müəllimlərin narazılığı davam edir.***

Müəllimlərin işə qəbulu imtahanına hazırlıq vəsaitləri ildən-ilə dəyişir, fərqli kitablar olur. Müəlliflərin sayı kitabları üstələyir. Hələ o azmış kimi deyirlər ki, kurikuluma yeni mövzular salınacaq. Nəticədə işbazlar qazanır.

Təhsil eksperti Kamran Əsədov SİA-ya açıqlamasında qeyd edir ki, ən çox narazılıqlar riyaziyyat fənni ilə bağlı olduğu üçün sözügedən fənnin test misalları təzədən ekspertizadan keçiriləcək və müvafiq addımlar atılacaq.

O, həmçinin bildirib ki, Azərbaycanda 2009-cu ildən başlayaraq orta təhsil məktəblərində MİQ imtahanları test vasitəsilə həyata keçirilir. Yeni bizim dövlət məktəblərində işləmək üçün yeganə yol qanuna uyğun olaraq təhsil nazirliyinin keçirdiyi test imtahanında iştirak etməkdir. 2013-cü ildən başlayaraq MİQ imtahanları yeni qaydalarla həyata keçirilir, burada həm vakant yerlərin seçimi, həm də test üsulları yeni formalarda tətbiq edilməyə başlamışdır. 2021-ci ildə orta məktəblərdə müəllim olmaq üçün 61 min nəfər sənəd vermişdirsə, 2022-ci il isə 56 min şəxs müəllim olmaq üçün sənəd verib. İmtahanlar əvvəlki illərdə fərqli olaraq təkcə Bakı şəhərində deyil, həmçinin son iki ildə bölgələrdə də təşkil edilir. Qeyd edim ki, imtahanlarda tətbiq olunan test tapşırıqları ilə bağlı mütəmadi problemlər faktiki olaraq öz əksini tapır.

Məsələn, 2019-cu ildə 26 test tapşırığı ümumiyyətlə texniki olaraq səhv idi, 2021-ci ildə tətbiq olunan imtahanlardakı qüsurlara görə birmənalı şəkildə bir neçə fənn üzrə imtahanlar təkrar təşkil olundu. Bu il isə imtahanların məzmununda,strukturunda ciddi irəliləyişin olduğunu görürük. İndiyə qədər bədən tərbiyə, texnologiya, Azərbaycan dili - ədəbiyyat və riyaziyyat müəllimləri imtahan veriblər. Konkret olaraq biz suallara baxaraq deyə bilərik ki, bu sualların məzmunu bilikləri yoxlamağa kifayət qədər imkan verəcək formada hazırlanmışdır. Məsələn riyaziyyat fənnindən test tapşırıqların ağırlıq səviyyəsi biraz daha ağır, Azərbaycan dili - ədəbiyyat fənindəki suallar isə daha modern tipdə, bədən tərbiyə, texnologiya fənindəki suallar daha sadə kimi qiymətləndirmək olardı. Təbii ki bu fənlərin strukturundan da asılıdır. Suallarla bağlı hələki, ciddi bir qüsur görməsək də çox təəssüf ki, sosial şəbəkələrdə imtahanda iştirak edənlər sualların öncədən paylanılma faktını ortaya qoyublar. Bu fakt həqiqətən imtahanda iştirak edən zamandan öncə işlədilən sualların ora salındığı öz təsdiqini tapdı. Bu niyə baş verir? Çünki Təhsil Nazirliyinin hələ də punkir sistemi formalaşmayıb bu zaman sifariş verdikləri sualları hazırlayan şəxs həmin sualları öncədən MİQ imtahanlarda iştirak edənlərə təqdim edir. Bunun müqabilində reytinqini, reklamını artırır, daha çox müdavim yığıb pul qazanır.



Azərbaycanda ümumiyyətlə təhlükəsizlik sisteminə malik olan Dövlət İmtahan Mərkəzidir. DİM hər il onlarla imtahan keçirir və heç vaxt orada belə hallarla rastlaşmırıq. Ümumillikdə bəzi sualları yazan müəllimlər və müəlliflər bu sualları öz şagird və müdavimlərinə işlədirlər bu da ədalət prinsipini birmənalı şəkildə pozur. Hesab edirəm ki, müəyyən qruplarda, sosial şəbəkələrdə paylaşılır. İmtahandan sonra görürük ki, hətta öncədən paylaşılan suallardan bir neçəsi də imtahanda salınan sualların içindədir. Ən çox şikayət riyaziyyat fənni ilə bağlıdır. Bu onu göstərir ki, riyaziyyat fənni yazan testi ekspertiza edən müəllif, ekspert bunu öz müdavimlərinə təqdim edəcək. Ümid edirəm ki, bundan sonra gələn illərdəki imtahanlarda Təhsil Nazirliyi testologiyanın təhlükəsizliyini təmin edə biləcək.

Texnologiya və kurikulumun təlimçisi, mütəxəssis Diana Həsənova 3 illik təlimçilik fəaliyyətində gördüyü ən çox nöqsanların bu il baş verdiyini deyib. Müdavimlərimin yüksək nəticə göstərməsinə baxmayaraq, imtahandan çıxanların əksəriyyətinin narazı olduqlarının şahidi oldum. Bəli, narazılıq çoxdur. Müdavimlərim həm səhvin düzü aparmasından, həm də stajı olan müəllimlərə bal əmsalının gəlməsindən narazıdırlar. Çünki, yeni qaydada ilk dəfə imtahan verib müəllim adı qazanmaq istəyən müdavimlər şansların azaldıqlarını düşünürlər. İlk iş üçün müraciət edənləri nəzərə almalaları daha dolğun olardı.

Onlar MİQ imtahanları qaydalarının əvvəlki kimi olmasını və daha dolğun, daha düzgün və şəffaf keçirmələrini istədiklərini bildirirlər. Yeni qaydayla ilk dəfə imtahan verən müdavimlərimin nəticələrindən çox razıyam. İlk dəfə imtahan verən müəllimlər üçün 80+, 90+ çox yaxşı nəticədir amma stajı olub 77 bal yığan müəllimin əmsal artımı 80+ etməsi savadlı kadrların arxa planda qalması ilə nəticləndiyini vurğulayırlar. Bir təlimçi kimi vurğulamaq istəyirəm ki, suallar çox sadə düşüb heç bir narazıçılığa səbəb yoxdu. Amma sualların yalnız 4-5 mövzu üzrə tərtib edilməsi sualların planlı qurulmamasının göstəricisidir. Bütün siniflər üzrə tərtib olunması daha məqsədəuyğundur.

MİQ imtahanları ilə bağlı narazılığını bildirənlərdən biri də kurikulum, alman və ingilis dili təsisçisi Nərmin Hacıyevadır.

Bu il MİQ imtahanına girə bilməsəm də, müdavimlərim girir. Ən birincisi demək olar ki, yarıdan çox insanda çoxlu texniki problemlər olub. Riyaziyyat sualları onsuz da gündəmdədir. Mənim üçün ən böyük problem bundan ibarətdir ki, imtahan sualları xarici ədəbiyyatlardan salınmamalıdır. Əgər orada imtahan sualını hazırlayan müəllimlər özlərindən 40 sual hazırlayıb təqdim edə bilmirlərsə, nə mənası var onların orada mövcudluğunun. Artıq, həqiqətən bu imtahanlara ciddi şəkildə yanaşılmalıdır. İmtahan suallarının hazırlanması peşəkar, MİQ imtahan formatından başı çıxan və ən əsası məktəbdə işləyən və məktəb proqramından xəbəri olan insanlara tapşırılmalıdır. Artıq 4 ildir ki, mən bu imtahanlarda iştirak etmişəm (bu il xaric). Amma hələ də bir ədalət, şəffaflıq görə bilmirəm.

***Havar Şəfiyeva***


## Elan

**Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin aşağıda siyahıda adları verilmiş YAP üzvlərinin partiya biletləri itdiyi üçün etibarsız sayılsın.**

| S/S | Soyadı,adı,atasının adı | Partiya vəsiqəsinin nömrəsi |
|---|---|---|
| 1 | Məmmədov Orxan Vidadi | 291915 |
| 2 | İsayev Elmar İslam | 106588 |
| 3 | Əliyev Elnur Vaqif | 573879 |
| 4 | Heydərov Natiq Namiq | 695737 |
| 5 | Abdullayev Emin Azər | 750147 |
| 6 | Əfəndizadə Səbuhi Zahid | 533585 |
| 7 | Əhmədov Adil Aydın | 202652 |
| 8 | Kazımova Məlahət İlyas | 506447 |
| 9 | Səfərli Firuzə Aydın | 599682 |
| 10 | Nadirov Valid Asəf | 244943 |
| 11 | Əlizadə Elgün Məzahir | 501637 |
| 12 | Quliyev Arif Kamran | 546929 |
| 13 | Muradova Nərgiz Ramiz | 683894 |
| 14 | Qurbanlı Elçin Çingiz | 666063 |
| 15 | Kazımov Elçin Asif | 783253 |
| 16 | Mehdiyev Əlisultan Müqəddəs | 757130 |
| 17 | Rzayev Elmar Hafiz | 421925 |
| 18 | Zeynallı Sabir Rəşad | 592352 |

## BİLDİRİŞ

**Hörmətli Səhmdar!**

**"BETON MƏMULATLARI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ nəzərinizə çatdırır ki, " 03" sentyabr 2022-ci il tarixində, saat 16:00-da Cəmiyyətin hüquqi və faktiki ünvanı olan Bakı şəhəri, Nərimanov rayonu, Akademik Ziya Bünyadov prospekti 156E ünvanında yerləşən inzibati binasında Cəmiyyətin səhmdarlarının Ümumi Yığıncağı keçiriləcəkdir. Ümumi Yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilməklə, Yığıncaqda həmin məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur:**

**1. "Beton Məmulatları" Açıq Səhmdar Cəmiyyətinin 2021-ci il üçün illik maliyyə təsərrüfatı fəaliyyətinin müzakirəsi (2021-ci il üzrə maliyyə hesabatının təsdiq edilməsi) barədə;**

**2. "Beton Məmulatları" Açıq Səhmdar Cəmiyyətinin 2021-ci maliyyə təsərrüfatı ilinin yekunlarına görə dividendlərin səhmdarlara ödənilməsi barədə;**

**3.Yığıncağın gündəliyində duran digər cari məsələlərin müzakirə edilməsi barədə.**

**Səhmdarlardan və ya onları Ümumi Yığıncaqda səlahiyyətli nümayəndə kimi təmsil edən şəxslərdən Yığıncaqda iştirak etmələri üçün aşağıdakı sənədlərin təqdim edilməsi xahiş olunur.**

**1. Səhmdarın özü iştirak etdikdə onun şəxsiyyətini təsdiq edən sənəd;**

**2. Səhmdar birbaşa özü deyil, nümayəndəsi vasitəsilə təmsil olunduqda təmsil edənin şəxsiyyətini təsdiq edən sənəd və ona səhmdar tərəfindən Ümumi Yığıncaqda təmsiletmə səlahiyyəti ilə bağlı verilmiş notarial qaydada təsdiq edilmiş etibarnamə;**

**3. Səhmdarın adına olan cari bank hesabı məlumatlarına dair sənəd (cari hesab barədə bank rekvizitlərinin əks olunduğu sənəd) - hesablanmış dividend məbləğinin köçürülməsi üçün.**

**Hörmətlə, "BETON MƏMULATLARI" ASC-nin İdarə Heyətinin sədri**

# Ermənistanda müşahidə olunan HƏYASIZLIĞIN PİK HƏDDİ

***Kapitulyasiya sənədinə imza atan və üzərinə öhdəliklər götürən Ermənistan tərəfində öhdəliklərin yerinə yetirilməsi barədə düşünmək əvəzinə hələ də müxtəlif absurd spekulyasiyalara üstünlük verilir. Təbii ki, bu hal təkcə Azərbaycan deyil, bütün dünya ölkələri tərəfindən qeyri-normal qəbul olunur. Əslində, bütün dünya ölkələri, eləcə də dünya ictimaiyyəti üçün müəmmalı qalmayan məsələ, tarixi ədalətin bərpası fonunda Ermənistan tərəfinin absurd iddiaları hədsiz dərəcədə gülünc təsir bağışlamaqla yanaşı, ikrah da doğurur, üstəlik ittiham olunmaları üçün tutarlı əsas da yaradır.***



Hələ də Ermənistan tərəfi müharibənin, cəmi 44 gün davam edən savaşın məntiqi nəticəsi kimi üzləşdiyi məğlubiyyətinə görə günahkar axtarır, günahkar bəllədiyini də dürmadan guya ifşa etməyə çalışır. Müharibənin bitməsindən iki ilə yaxın müddət keçməsinə baxmayaraq hələ də erməni cəmiyyəti məğlub olmalarına görə Rusiyanı, Amerika Birləşmiş Ştatlarını, xüsusilə Avropa İttifaqını günahlandırır. Hətta, sadalanan ölkələri, başda Avropa İttifaqı olmaqla bir sıra beynəlxalq təşkilatları ikiüzlülükdə ittiham edir, bununla isə ən böyük ikiüzlülüyü elə ermənilər özləri edirlər, çünki həqiqətin nədən ibarət olduğunu, özlərinin yalanlar uydurduqlarını, dünya ictimaiyyətini aldatmaq üçün bütün hiyləgərliklərə əl atdıqlarını özləri hamıdan yaxşı bilirlər. Bunu bilə-bilə də başqalarına qarşı ikiüzlülük barədə ittihamlar səsləndirmələrinə ikiüzlülük demək belə ifadə zəifliyidir, çünki bu simasızlıqlarına görə daha dəhşətli ad fikirləşib tapmaq gərəkir.

Erməni cəmiyyəti hələ də narazı halda, heç bir kömək almadığını, istər Qərb tərəfdən, istərsə də Rusiyadan heç bir dəstək görmədiyini bar-bar bağırır. Soruşmaq lazım gəlir ki, məgər ermənilər bir zamanlar, daha dəqiq desək, 44 günlük müharibədən öncəki dövrdə iddialı şəkildə fikirlər səsləndirəndə, tələblərlə çıxış edəndə kimlərinsə dəstəyinə sığınaraq lovğalanırdılar və indi güvəndiklərini qınamalıdırlar yoxsa özlərini? Hansısa dövlət, hansısa xalq, yaxud cəmiyyət özünə arxayın olmadan belə iddialı çıxış edirsə, bu normaldırmı? Yaxud, kimlərsə Ermənistana, ya da ermənilərə borclu idilərmi, dəstək göstərmələri barədə bir öhdəlikləri vardımı? Xülyalarla özlərini də, daxili auditoriyasını da axmaq yerinə qoyanlar heçmi utanmaq niyyətində deyillər və bunun nə qədər davam edəcəyi barədə də düşünmək istəmirləmi? Düşünmək, yaxud başa düşmək istəmirlərmi ki, belə absurd, həqiqətə uyğun olmayan ittihamlar səsləndirməklə nə problemləri həll olunan deyil, nə də üzərlərinə götürdükləri öhdəlikərdən boyun qaçıra bilməzlər?

Müharibənin sərt qanunları var və tərəflər bu qanunları əvvəlcədən bilməli, göz önünə almalıdırlar. Hər iki tərəf bilməlidir ki, müharibə itgilər deməkdir və haqsız, hər mənada gücsüz, zəif tərəfin də məğlubiyyəti məntiqi nəticə olaraq qəbul olunur. Ermənistan istisna olmaqla, müharibəni uduzan tərəf heç zaman hansısa dövlətləri ittiham edəcəyi ilə vəziyyətdən çıxacağını düşünməyib və məğlubiyyəti fonunda üzərinə götürdüyü öhdəlikləri məğlub tərəf dərhal yerinə yetirməyə başlayıb. Məğlubiyyətinin ardınca öhdəliklərini yerinə yetirməyəcəyinə ümid edərək günahkar axtarmaq kimi bir təcrübəyə hələ tarixdə rast gəlinməyib və bütün məğlub tərəflər razılaşmalara əməl etmək məcburiyyətində olublar. Ermənistan deyilən bir dövlət bütün dünyada nə xüsusi imtiyaz sahibidir, nə də belə bir şans mümkün deyil və imzalanan sənəd hamı kimi onlara da aiddir. Hüquqi sənəd, ələlxüsus müharibənin bitdiyi barədə razılaşmalar, xüsusilə də kapitulyasiya sənədi ermənilər üçün oyuncaq deyil və belə zənn edirləsə bərk yanılırlar.



Müharibə bitdikdən, Ermənistan tərəfi rüsvayçı məğlubiyyətlə üzləşdikdən, kapitulyasiya sənədini imzalayaraq üzərinə öhdəliklər götürdükdən sonra Zəfər çalan Azərbaycanı qınamadığı üçün bütün dünyanı günahkar bilmək hansı məntiqə sığışır? Az qala əsrin üçdə birinə yaxın müddət ərzində işğal altında saxladıqları və bu müddət ərzində xarabalığa çevirdikləri torpaqları iki il keçmədən abadlaşdıran Azərbaycana qarşı necə, hansı üzlə ittiham irəli sürə bilərlər və bunu dünya ölkələrinin qəbul edəcəyinə hansı başla inana bilərlər? Bütün dünya görmədimi ki, torpaqları erməni işğalından azad edən Azərbaycan dərhal quruculuq abadlıq işlərinə başladı, halbuki həmin torpaqlar erməni işğalı altında olan otuz ildə bunu müşahidə edən olmamışdı və bu fakt özü torpaqların əsl sahibinin kim olduğunu açıq-aşkar isbat etmirmi? Özlərini aldatmaqla bu toplum xoşbəxt olurmu, yoxsa, öz yalanına inanmaqla vəziyyətdən çıxmağı, imzalanan sənəddən boyun qaçırılacağını düşünürləmi bunlar?

Həyasızlıq və ikiüzlülük bu işğalçı ölkədə gör hansı pik həddə çatıb ki, erməni politoloqları Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin Azərbaycana səfərini Ermənistan üçün faciə adlandırırlar. Qeyd olunur ki, ermənilərin gözləri önündə faciəli olduğunu hələ dərk etmədiyikləri bir hadisə baş verir və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin Azərbaycana səfəri Ermənistanda ağlabatan narahatlıq üçün əsasdır. İndi bunlardan soruşmaq yerinə düşür ki, axı niyə belə hesab edirlər? Məgər Avropa Komissiyasının Prezidenti Azərbaycana, yaxud hansısa bir ölkəyə səfər etməzdən öncə Ermənistandan, erməni cəmiyyətindən icazə almalı idi? Yoxsa Avropa Komissiyasının Prezidenti də ermənilərə qoşulub müharibənin acı məğlubiyyətinə görə yas saxlamalıdır? Niyə bu toplum elə hesab edir ki, hamı bunlara borcludur və bu xəstəliklərinin nə vaxtsa çarəsini tapacaqlarına özləri belə inanırlarmı?

”Böyük Ermənistan” kimi cəfəngiyyatdan ibarət miflərlə öz başlarını xarab edənlər indi də daha bir ağ yalanı, haqlı tərəf olduqları barədə uydurmaları həyasızcasına beyinlərə həkk etdirmək niyyətindədirlər və bu da ən böyük həyasızlıqdan biri hesab olunur. Məsələ burasındadır ki, bu həyasızlıqları və ikiüzlülüklərinin bundan sonra da faydası olmayacaq və guya Ermənistanın suveren ərazisinin işğal edildiyi iddiaları heç kim tərəfindən qəbul edilən deyil. Əksinə, artıq ermənilər bu ikiüzlülkləri ilə, həyasızlıqları ilə özlərini ifşa edirlər və bütün dünya onların əsl simalarını daha yaxşı görmüş olur.



Doğrudur, Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin Azərbaycana səfəri ermənilərin kürkünə birə saldığı başadüşüləndir, çünki onlar Azərbaycanın rolunun Avropada, eləcə də bütün dünyada artmasından narahat olmaya bilməzlər. ”Avropa İttifaqı daha etibarlı enerji təchizatçılarına müraciət edir. Bu gün mən yeni müqavilə imzalamaq üçün Azərbaycana gəlmişəm. Məqsədimiz bir neçə il ərzində Azərbaycandan Aİ-yə qaz nəqlini iki dəfə artırmaqdır. Azərbaycan təchizat təhlükəsizliyimiz və iqlim neytrallığına gedən yolda bizim mühüm tərəfdaşımız olacaq”, deyə Avropa Komissiyasının Prezidentinin öz Twitter səhifəsində yazması isə nəinki ermənilərin, ümumiyyətlə Azərbaycanın qüdrətinin daha da artmasını istəməyən, bunu həzm edə bilməyən qüvvələri hədsiz dərəcədə narahat edib. Ona görə ki, həmin qüvvələr yaxşı başa düşürlər ki, həqiqətən də Azərbaycan artıq layiqli, mühüm tərəfdaş olaraq qəbul edilir və bu da ölkəmizin potensialının, gücünün, qüdrətinin dəfələrlə artması deməkdir.

Hazırda ”Şahdəniz” yatağı ixrac olunan resurs bazasıdır. Yaxın gələcəkdə Abşeron, Şəfəq, Asiman, Ümid-Babək yataqlarında və Azəri-Çıraq-Günəşli yataqlarının dərinsulu hissəsində də böyük həcmdə hasilat gözlənilir ki, bu, çox böyük bir dəyişiklik, irəliləyiş deməkdir. Avropaya nəql olunan qazın satışından Azərbaycanın böyük miqdarda, milyardlarla gəlir əldə edəcəyi bəlli məsələdir. Bu isə ölkəmizin büdcə gəlirlərinin artması deməkdir. Bu da öz növbəsində imkanlarımızın, potensialımızın artacağı anlamına gəlir ki, həmin reallıqları dərk edənlərin narahatlıqlarını da başa düşmək çətin deyil. Azərbaycanın əldə etdiyi və bundan sonra əldə edəcəyi imkanları, gəlirləri, mövcud və real potensialını həzm edə bilməyənlər, xüsusən ölkəmizin torpaqlarında gözü olanlar, işğalçılıq siyasəti yürütmək istəyənlər həm də ondan narahatdırlar ki, bu imkanlar Azərbaycana getdikcə daha çox müasir silahlar almağa imkan verəcək. Təbii ki, bu da öz növbəsində ölkəmizin hərbi qüdrətinin daha da artmasından, bundan sonra da artacağından, eləcə də ərazi bütövlüyümüzü, suverenliyimizi qorumaq iqtidarında olduğumuzdan, kimlərinsə buna qarşı gələ bilməyəcəyindən xəbər verir və narahatlıqları da bu səbəbdəndir.

Əslində, Ermənistanın indi ikiüzlülük etmək əvəzinə daha çox narahat olması məntiqli görünür, çünki bunun üçün yetərincə əsas var və sülh danışıqları istiqamətində addımların atılması daha ağlabatandır. Yenə də aranı qarışdırmaq üçün bütün simasızlıqlara, ikiüzlülüyə əl atanlar bu gün də olsa dərk etməlidirlər ki, mövcud reallıqları, Azərbaycanın yaratdığı reallıqları qəbul etməkdən başqa, doğru yolları yoxdur. Getdikcə inkişaf edən, sürətlə öz imkanlarını genişləndirən, potensialını artıran Azərbaycanın qarşısında hansısa qüvvə tab gətirə, dayana bilməyəcəyi ilə ağlı olan toplum barışmalı, bunu qəbul etməli idi və əgər qəbul edə bilmirsə, hələ də hansısa xüslyadadırsa, deməli bu, sadəcə həyasızlığın pik həddidir. Danışıqların, Bəyannamənin şərtlərindən irəli gələn tələbləri yerinə yetirməyi hansısa yolla, simasızlıqla uzatmaq istəyən Ermənistanda isə bu həyasızlığın pik həddi müşahidə olunur.

**_İnam Hacıyev_**

# Rus ekspert: “Yeni müharibə başlasa, Ermənistan uduzacaq”



***Sergey Markov: Qərb və Paşinyan üçtərəfli bəyanata yenidən baxılması və Qarabağın ermənilər yaşayan hissəsinin "müstəqilliyinin" təmin edilməsi üçün çalışır.***

Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov "Moskva-Bakı"ya müsahibəsində Qərb dövlətlərinin Ermənistan-Azərbaycan nizamlanması istiqamətində fəallığının səbəbləri haqqında maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.

**-Sergey Aleksandroviç, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Tiflis görüşündən sonra danışıqları ilk olaraq Dövlət Departamenti alqışladı, daha sonra ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid hər iki nazirə telefonla zəng etdi. Bunun fonunda MKİ rəhbəri İrəvana səfər edib. Bundan əvvəl Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Yerevanda və Bakıda olub. Qərb ölkələrinin bu qədər fəallığının səbəbi nədir?**

-Ermənistan-Azərbaycan qəsəbəsi ətrafında siyasi oyunlar gedir. Biz regionda güclü fəallığın olduğunu görürük. Həqiqətən də MKİ-nin direktoru bu yaxınlarda İrəvana səfər edib. Bunun ardınca Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkin də Ermənistan rəhbərliyi ilə Amerika kəşfiyyatının rəhbəri arasında söhbətin nədən getdiyini anlamaq üçün Ermənistana uçub.

Bundan başqa, Co Bayden Yaxın Şərqə son turu çərçivəsində Erməni Apostol Kilsəsinin Yerusəlim Patriarxı ilə də görüşüb. Bütün bunların fonunda dünən bütün ermənilərin katolikosu II Qaregin Vaşinqtona gedib. Aydındır ki, nəsə planlaşdırılır.

2020-ci ildə Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri qan tökülməsinə son qoyan Üçtərəfli Bəyanatı imzalayanda Qərb çox narazı qaldı və Moskvaya bütövlükdə irad bildirdilər ki, bunu onlarsız necə edə bilərlər. Avropalı siyasətçilər yetişməyə çalışdılar. Bunlar, məsələn, Avropa Şurası rəhbərinin vasitəçiliyi ilə keçirilən Brüssel danışıqları, orada heç bir yenilik olmayıb. Qərb yalnız Moskvanın vasitəçiliyi ilə artıq edilənlərdən yapışmağa çalışırdı. Yəni, bu məsələ əvvəllər Moskvanın vasitəçiliyi ilə əldə edilmişdi.

Əslində nə Azərbaycan, nə də Ermənistan xalqı kollektiv adlanan Qərbin vecinə deyil. Onun üçün ardıcıl olaraq bu bölgədən Rusiyaya qarşı istifadə etmək vacibdir. Qərb dövlətləri Ermənistan-Azərbaycan probleminin həllində Rusiyanı moderator kimi əvəzləmək arzusundadırlar. Bu məqsədlə onlar Rusiya sülhməramlılarının regiondan çıxarılması üçün bəhanə ola biləcək vəziyyətin təhrik edilməsinə belə qarşı deyillər. Mən istisna etmirəm ki, Qərb Rusiya və Türkiyəni qarışdırmaq istəyir.

ABŞ və Avropa İttifaqı Türkiyənin Rusiyaya qarşı xeyirxah mövqe tutmasından çox narazıdırlar, onu bu vəziyyətdən çıxarmaq, Ankara və Moskvanı Qarabağda yeni müharibəyə cəlb etmək istəyirlər. Onlar hesab edirlər ki, bu halda Türkiyə öz neytrallığını tərk edərək, Rusiya əleyhinə sanksiyalara qoşula bilər. Onlar təkcə Azərbaycanla Ermənistan arasında münaqişəni yandırmaq deyil, Rusiya sülhməramlılarının da iştirak edəcəyi belə bir münaqişəni qızışdırmaq istəyirlər. Amma bu arzular arzu olaraq qalacaq. Rusiya Cənubi Qafqazda özünü çox ehtiyatlı aparır, bu regionda davamlı sülhə nail olmaq kimi prioritet vəzifəsini müəyyənləşdirir. Bu məqsəd bu meydanda yaşayan bütün xalqların mənafeyinə uyğundur.

**- Ən intensiv əlaqələri, qərblilər, gördüyümüz kimi, Ermənistanla etməyə çalışırlar. Niyə?**

- Paşinyanın komandasından münaqişə qızışdırmaq üçün istifadə olunur. Ermənistanın baş naziri uzun müddətdir ki, Qərb ölkələrinin üçtərəfli bəyanata yenidən baxılmasına təsir göstərməsinə nail olmağa çalışır. Təəccüblü deyil ki, Paşinyan ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə Azərbaycanla danışıqların zəruriliyini bu qədər fəal şəkildə təbliğ edir. Xatırladığımız kimi, keçən il ABŞ və Fransa Qarabağın statusunun həlli zərurətini fəal şəkildə irəli sürdülər. Bu, Paşinyanla ABŞ və Fransa arasında belə bir qarşılıqlı əlaqə formasıdır.

Xatırladım ki, Vaşinqton və Paris ATƏT-in Minsk Qrupu çərçivəsində Rusiya ilə işləməkdən imtina ediblər. Bu qrupda yalnız ABŞ və Fransanın qalması Paşinyan üçün daha əlverişlidir. Ona görə də Ermənistanın baş naziri "ATƏT-in Minsk qrupu" deyəndə Fransa və ABŞ-ı nəzərdə tutur. Paşinyan eyni zamanda Qarabağın ermənilərin nəzarətində qalan hissəsinin "statusu"na, faktiki olaraq onun Azərbaycandan müstəqilliyinə əlavə əsaslar əldə etmək, eyni zamanda Rusiyanın himayəsindən frankoamerikanlığa keçmək istərdi. Onun planı belədir.

Onun bunu necə təsəvvür etdiyi aydın deyil. Axı Ermənistan yeni müharibəyə başlasa, onsuz da uduzacaq. Azərbaycan ordusu daha güclüdür. Bundan nə çıxa bilər? Yaxşı bir şey görünmür.

**- Yəni, məqsəd üçtərəfli bəyanatı pozmaqdır?**

- Qərb düşünür ki, o, demək olar ki, hər şeyi edə bilər. Əslində, onların toxunduğu hər şey çökür. Bildiyiniz kimi, Ermənistan əldə olunmuş üçtərəfli razılaşmaların bir çox müddəalarını yerinə yetirmir və bununla da əlavə münaqişə potensialı yaradır. Rusiyanın Ukraynanı tutması şəraitində Qərb yaranmış vəziyyətdən istifadə edir. Regionda hər şeyi dağıdaraq oynayan Qərb kimi Paşinyan da bu üçtərəfli bəyanatı pozmağa çalışır. O, Rusiyaya bu xəyanətinin əvəzində Qarabağın statusunun təmin olunmasını istəyir. Azərbaycan nə edir? Azərbaycan Üçtərəfli Sazişlərin həyata keçirilməsinə çalışır və haqlı olaraq Rusiyanın bu sazişlərin təminatçısı kimi Ermənistana təzyiq göstərməsini gözləyir. Söhbət erməni silahlılarının Qarabağdan çıxarılmasından, sərhədin delimitasiyası və demarkasiyasından və Zəngəzur nəqliyyat dəhlizinin açılmasından gedir.

Bir çox Aİ rəsmiləri Azərbaycana öz təsirlərini artırmaq üçün teztez gəliblər. Amma Azərbaycan yaxşı xatırlayır ki, Avropa strukturları dəfələrlə Azərbaycan əleyhinə qətnamələr qəbul ediblər. İlham Əliyev isə çox gözəl başa düşür ki, Qərblə ehtiyatlı olmaq lazımdır. Bəli, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artır. Qərb tərəfdaşları isə artıq bundan sui-istifadə etməyə, o cümlədən Rusiya-Azərbaycan münasibətləri üzərində oynamağa çalışırlar. Amma uğur qazana bilməyəcəklər. Rusiya və Azərbaycan qonşudur. Bir-birimizdən uzaqlaşa bilmərik. Bəli, Bakı Ermənistan-Azərbaycan probleminin həlli ilə bağlı görüşlərə razıdır. Amma bu, daha çox diplomatik taktikadır. Bundan başqa, rəsmi Bakıya nizamlanma məsələsinin irəliləməsi lazımdır. Və bu baxımdan Qərb Cənubi Qafqazda nüfuzunu geri qaytarmağa çalışarkən Rusiya daha fəal olmalıdır.



O cümlədən, ötən gün İlham Əliyev Ermənistan silahlı qüvvələrinin iyunun sonunadək Qarabağdan çıxarılması ilə bağlı razılaşmaların olduğunu bəyan edib. Amma bu edilməyib. O, bu barədə açıqlama verdikdən sonra Rusiya Xarici Kəşfiyyat Xidmətinin rəhbəri İrəvanda danışıqlar aparıb və bundan sonra Ermənistan Təhlükəsizlik Şurası sentyabra kimi Ermənistan Silahlı Qüvvələrinin Qarabağdan çıxarılacağını bəyan edib. Daha sonra Rusiya Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Azərbaycan prezidenti ilə görüşüb. Hesab edirəm ki, Moskva buna baxmayaraq, Ermənistana özünü konstruktiv aparmağı tövsiyə edib, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Üçtərəfli Bəyanatında qeyd olunan İkinci Qarabağ müharibəsinin başa çatmasından və Ermənistan qoşunlarının çıxarılmasından iki ilə yaxın vaxt keçib. Amma bu müddət ərzində bəyanatda nəzərdə tutulanlar tam həyata keçirilməmişdir. Düşünürəm ki, Moskva bunu İrəvana xatırladıb.

***Müsahibə - Nana Xoştariya***
***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

SON SƏHİFƏ
SƏS
21 iyul
2022-ci il



# Mustafa "Qalatasaray"ı göz yaşları ilə tərk etdi...

***Türkiyənin "Qalatasaray" futbol klubu heyətini yeni futbolçu ilə gücləndirib. SİA Matç.az-a istinadən xəbər verir ki, Super Liqa təmsilçisi Portuqaliyanın "Benfika" klubunun hücumçusu Haris Seferoviçi transfer edib.***

Bu barədə klubun rəsmi saytı məlumat yayıb. İsveçrədən olan 30 yaşlı futbolçu 2022/23 mövsümünün sonuna kimi icarəyə götürülüb. Mövsümün sonunda Türkiyə klubu "Benfika"ya 3.5 milyon avro ödəməklə futbolçunun transfer hüquqlarını da ala bilər. Seferoviç özü isə İstanbul təmsilçisində ilinə 2 milyon avro qazanacaq.

Haris Seferoviç 2017-ci ildən "Benfika"da çıxış edirdi. O, bu komandanın heyətində keçirdiyi 5 mövsüm ərzində 188 matça çıxıb, 74 qol vurub. Təcrübəli hücumçu əvvəllər "Qrasshopper", "Fiorentina", "Ksamaks", "Leççe", "Novara", "Real Sosyedad" və "Ayntraxt" kimi klubların da formasını geyinib. İsveçrə yığmasında 86 oyun keçirmiş futbolçu, 25 qol vurub.

"Qalatasaray" öz hücumçusu Mustafa Məhəmmədi də Fransanın "Nant" klubuna icarəyə verib. 24 yaşlı misirli futbolçu qarşıdakı mövsümün sonuna kimi Liqa 1 təmsilçisində çıxış edəcək. "Nant" mövsümün sonunda 6 milyon avro ödəməklə Misir yığmasının üzvünü birdəfəlik transfer edə bilər.

# Bu gün 41 dərəcə isti olacaq!

**Azərbaycanda iyulun 21-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz keçəcək. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 22-25°, gündüz 30-34° isti, Bakıda gecə 22-24°, gündüz 32-34° isti olacaq. Atmosfer təzyiqi 755 millimetr civə sütunu, nisbi rütubət 60-65 faiz təşkil edəcək.**

**Abşeron çimərliklərində şimal-qərb küləyinin arabir güclənməsi ilə əlaqədar əhalinin ehtiyatlı olması tövsiyə olunur. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 23-24°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 24-25° isti olacaq.**

**Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclü olacaq. Havanın temperaturunun gecə 23-27°, gündüz 34-39°, bəzi yerlərdə 41° isti, dağlarda gecə 10-15°, gündüz 23-28° isti olacağı ehtimal edilir.**



# Türkiyədə 3300 illik olan möhür və xəncər tapıldı



***Türkiyənin Kütahya rayonunda yerləşən 8 min illik tarixi olan Tavşanlıda yeni arxeoloji qazıntılar zamanı tarixi 3300 illik olan möhür və xəncər tapılıb. SİA bu barədə Türkiyə saytlarına istinad edir. Anadolu agentliyi xəbər verir ki, sözügedən möhür və xəncər Bilecik Şeyh Edebali Universitetinin alimi Erkan Fidanın rəhbərliyi ilə aparılan qazıntılar zamanı tapılıb.***

Bu tarixi əsərlər Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin Mədəni İrs və Muzeylər Baş İdarəsinin Qazıntılar və araşdırmalar şöbəsinin sosial media hesabında paylaşılıb. Aparılan digər qazıntılar zamanı yenə yeni arxeoloji tapıntıların aşkarlanması gözlənilir.

# Evlərdən pul və qızıl oğurlayan keçmiş məhkum tutulub



***Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi və Nizami Rayon Polis İdarəsinin 25-ci polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon ərazisindəki evlərin birindən pul və qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Saatlı rayon sakini, əvvəllər məhkum olunmuş E.Cəfərov saxlanılıb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin şəxslə bağlı aparılan tədbirlər nəticəsində onun müxtəlif vaxtlarda daha dörd evdən ümumilikdə 23 min ABŞ dolları, 700 manat, 81 min manat dəyərində qızıl-zinət əşyaları və noutbuk oğurlaması da müəyyən olunub. Faktla bağlı araşdırma aparılır.

## Başsağlığı

**Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev Sumqayıt Yüksək Gərginlik Elektrik Şəbəkəsinin rəisi Xəndan Əhmədova qardaşı**

**Qüdrət müəllimin**

**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

**Allah rəhmət eləsin.**

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**